www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 28 oktyabr 2025-ci il Çərşənbə axşamı № 195 (8805) Qiymıəti 60 qəpik

## Xəbər

**COVİD-19 peyvəndi infarkta səbəb olur? - xəbərdarlıq**

yazısı səh.14-də

## Gündəm

**Bakı Ermənistana daha bir qapı açır - mühüm anlaşma**



Azərbaycan Rusiya məhsullarının da bu ölkəyə öz ərazisindən daxil olmasına hazırdır

yazısı səh.6-da

**NATO səfirləri Azərbaycanda - tək hədəf**

yazısı səh.8-də

**Sərhəddəki "casus"lar hərəkətləndi - Bakının tələbi**

yazısı səh.7-də

**"Putinin pulu və əsgəri tükənir..." - sülh qapıda?**

yazısı səh.12-də

**Azərbaycan İrəvandakı tədbiri boykot etdi - səbəb**

yazısı səh.7-də

**Bakı Paşinyanı qoruyur iddiası - revanşistlər panikada**

yazısı səh.5-də

**İrəvandan yol təklifi: Zəngəzuru unutdurmaq cəhdi, yoxsa...**

yazısı səh.10-da

**Kreml lideri hərbi geyimdə Ukraynada - ilginc mesaj**

yazısı səh.5-də

**Əhalinin nəzərinə: pensiya kapitalı artırılacaq**

yazısı səh.2-də

**Doktoranturaya marağı necə artırmalı? - problem**

yazısı səh.15-də

**30 nəfərlik dəstə tutuldu - Baş Prokurorluqdan açıqlama**

yazısı səh.13-də

# MOSKVADAN AĞ EVDƏKİ ANLAŞMAYA "GENOSİD" HƏDƏSİ

Rusiya XİN rəsmisi Paşinyanı niyə xəyanətkar adlandırdı - şok səbəb; Kreml böyük normallaşma prosesinə qarşı



yazısı səh.9-da

# AYNA xaosun "güzgüsü" qismində - yığılan pulların aqibəti

"AzParkinq"lə bağlı ictimai narazılıq kütləviləşir, dövlət televiziyası da sürücülərin şikayətini işıqlandırdı; ekspertlərdən şəffaflıqla bağlı çağırış

yazısı səh.3-də



**Ramİz Mehdİyevİn adı keçən qətl İşİ - şok təfərrüat**

yazısı səh.3-də



Vadim Titov

**Postsovet ölkələri ona "tapşırıldı" - müəmmalı plan**

yazısı səh.12-də



*Pənah Hüseyn:*

**"Rusİya İlə münasİbətlərİmİz əvvəlkİ kİmİ olmayacaq"**

yazısı səh.4-də

# Gələn il pensiya kapitalı artırılacaq



**"Əmək pensiyaları haqqında" Qanuna əsasən, yalnız əmək pensiyaları deyil, həmçinin vətəndaşların pensiya kapitalı da 2026-cı ildə indeksləşdirilərək artırılacaq".**

Modern.az xəbər verir ki, bu barədə **deputat Vüqar Bayramov** sosial şəbəkə hesabında şərh verib. "Həmin qanunun 29.1-1 maddəsində qeyd olunur ki, sığortaolunanların fərdi şəxsi hesabının sığorta hissəsində qeydə alınan pensiya kapitalı ildə bir dəfə istehlak qiymətləri indeksinin illik səviyyəsinə uyğun olaraq indeksləşdirilir. Yəni pensiya kapitalları 2025-ci ildəki illik inflyasiya səviyyəsinə uyğun olaraq artırılacaq", - parlamentari bildirib.

Pensiya kapitalının nə qədər artırılacağına gəldikdə, deputat Mərkəzi Bankın 2025-ci il üçün inflyasiya proqnozuna yenidən düzəliş etdiyini diqqətə çatdırıb: "Mərkəzi Bankda bu il Azərbaycanda qiymətlərin 6.0 faiz artdığını proqnozlaşdırırlar. Dövlət Statistika Komitəsinin məlumatlarına görə, bu ilin ilk 9 ayında istehlak qiymətləri indeksi 5.7 faiz olub. Bu o deməkdir ki, mövcud qanuna əsasən, Mərkəzi Bankın proqnozunda kənarlaşma olmazsa, vətəndaşların pensiya kapitalı təxminən 6.0 faiz artırılacaq.

Yəni bu halda vətəndaşın 50 min manat pensiya kapitalı varsa, onun vəsaiti gələn il təxminən 3 min manat artırılacaq. Təbii ki, daha konkret rəqəm yanvar ayında elan olunacaq. Bu artım vətəndaşların daha çox pensiya alması və kapitalın inflyasiyadan qorunması baxımından vacibdir".



## Azərbaycan sülhməramlıları Qəzzada nə iş görəcək?

**ABŞ Prezidenti Donald Trampın sülh planına əsasən Qəzza zolağında yerləşdirilməsi planlaşdırılan beynəlxalq sabitləşdirmə qüvvələri Azərbaycan, İndoneziya və Pakistan hərbçilərindən ibarət olacaq.**

Modern.az İsrail mediasına istinadən xəbər verir ki, bunu İsrail Müdafiə Nazirliyinin nümayəndələri Knessetdə keçirilən qapalı iclasda bildiriblər.

Məlumata görə, bu qüvvələrin mandatına Qəzzada daxili təhlükəsizliyin təmin edilməsi və İsraillə HƏMAS arasında silah tədarükünün qarşısının alınması məqsədilə bufer zona yaradılması daxildir.

Əvvəllər yayılan məlumatlarda bu missiyanın yalnız Azərbaycan və İndoneziya hərbçilərindən ibarət olacağı bildirilirdi. Lakin son müzakirələrdən sonra Pakistandan da kontingent cəlb olunması ehtimal edilir.

"The Times of Israel" nəşri yazır ki, İndoneziya artıq rəsmi şəkildə öz hərbçilərini göndərməyə hazır olduğunu bəyan edib, Azərbaycan isə prinsipial razılığını bildirib, lakin hələlik rəsmi qərar açıqlanmayıb. Pakistan da bu missiyada iştirak etməyə maraqlı tərəf kimi göstərilir.

Mənbələrin sözlərinə görə, beynəlxalq sülhməramlı kontingentin ümumi sayı təxminən 10 min nəfər olacaq.

Hazırda missiyanın maliyyələşməsi, səlahiyyət çərçivəsi və hüquqi əsasları barədə danışıqlar davam edir. İndoneziya bildirib ki, qoşunlarını yalnız BMT Təhlükəsizlik Şurasının müvafiq qətnaməsi qəbul ediləcəyi təqdirdə göndərəcək.




## İtkin düşən şəhidimizin nəşi tapıldı

**Birinci Qarabağ müharibəsi zamanı itkin düşən şəhid Şahmurov Mübariz Ağahüseyn oğlunun nəşi tapılıb. Teleqraf-ın əldə etdiyi məlumata görə, şəhid Mübariz Şahmurov sabah Keşlədə yerləşən Şəhidlər xiyabanında torpağa tapşırılacaq.**

Şəhid Mübariz Şahmurov Sabirabadın Nərimankənd kəndində anadan olub. Onun vaxtilə oxuduğu kənd məktəbi də şəhidimizin adını daşıyır.

Xatırladaq ki, M.Şahmurov Milli Qəhrəman Aqil Quliyevin dəstəsində döyüşüb. Şahmurov Mübariz 1992-ci il fevralın 26-da 29 yaşında Xocalıda qəhrəmanlıqla şəhid olub.

## Başçı müavininə cəza istənildi

**Gədəbəy Rayon İcra Hakimiyyəti başçısının sabiq müavini Vəfa Allahverdiyeva və tanışı Təranə Bağırovanın cinayət işi üzrə məhkəmə prosesi keçirilib.**

Modern.az xəbər verir ki, dünən Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Aygün Qurbanovanın sədrliyi ilə keçirilən prosesdə dövlət ittihamçısı çıxış edib.

O, V.A 2 il müddətinə dövlət və yerli özünü idarəetmə orqanlarında vəzifə tutma hüququndan məhrum edilməklə 7 il 6 ay müddətinə, T.B isə əvvəlki cəzası da qismən toplanılmaq yolu ilə 3 il vəzifə tutmaq hüququndan məhrum edilməklə 9 il müddətinə azadlıqdan məhrum edilməsini təklif edib.

Zərərçəkən şəxs, sadəcə, pulunun ödənilməsini xahiş edərək, yekun cəzanı məhkəmənin mülahizəsinə buraxıb. Vəkillər çıxış üçün vaxt istəyib. Proses oktyabrın 31-nə təxirə salınıb.

Qeyd edək ki, bir müddət əvvəl tutduğu vəzifədən uzaqlaşdırılan V.A tanışı T.B ilə əlbir olaraq dələduzluq etməkdə ittiham olunur. Cinayət işi üzrə zərərçəkən kimi tanınan isə Gədəbəy rayon sakini Cavanşir Məmmədəliyevdir.

İttihama görə, təqsirləndirilən şəxslər Cavanşir Məmmədəliyevi Gədəbəy Rayon Təhsil Şöbəsinin müdiri vəzifəsinə təyin ediləcəyi ilə aldadaraq 51 min manat pulunu alıblar.

T.B. bir müddət əvvəl başqa dələduzluq əməlinə görə məhkum edilib.

V.A barəsində istintaq dövründə polisin nəzarəti altına vermə qətimkan tədbiri seçilib.

Onların hər ikisinə qarşı Cinayət Məcəlləsinin 178.3.2-ci (dələduzluq-külli miqdarda ziyan vurmaqla törədildikdə)

## 6 bağça müəlliminin işinə xitam verildi

**Şərqi Zəngəzur Regional Təhsil İdarəsi üzrə ümumilikdə 33 məktəbəqədər təhsil müəssisəsi fəaliyyət göstərir.**

Bu barədə Modern.az-ın sorğusuna cavab olaraq Şərqi Zəngəzur Regional Təhsil İdarəsindən məlumat verilib.

Bildirilib ki, onlardan 16-sı uşaq bağçası, 17-si isə körpələr evi-uşaq bağçasıdır. Əlavə olaraq qeyd edilib ki, bağçalarda 171 nəfər tərbiyəçi-müəllim çalışır. Onlardan 7 nəfəri 2024-2025-ci tədris ili üzrə təyin olunub.

Regional Təhsil İdarəsindən verilən məlumata görə, qeyd olunan tədris ilində 6 nəfər tərbiyəçi-müəllimin əmək müqaviləsinə xitam verilib. Bildirilib ki, onların əmək müqaviləsi yaş həddinə çatmaları və müqavilə müddətinin bitməsi ilə əlaqədar dayandırılıb.

## Azər Maqsudova hökm oxundu



**Tanınmış alim Arif Acaloğlunu avtomobillə vuraraq ölümündə təqsirləndirilən həkim Azər Maqsudova hökm oxunub.**

Musavat.com xəbər verir ki, Sabunçu Rayon Məhkəməsində hakim Teymur Həsənovun sədrliyi ilə keçirilən prosesdə o, 1 il 6 ay müddətə avtomobil idarə etmək hüququndan məhrum edilməklə 4 il müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilib.

A.Maqsudov cəzasını məntəqə tipli cəza çəkmə müəssisəsində çəkəcək. Həmçinin məhkəmə zərərçəkən tərəfin qaldırdığı mülki iddianı baxılmamış saxlayıb.

Prosesdə dövlət ittihamçısı da çıxış edib. O, Azər Maqsudovun 5 il 6 ay müddətə azadlıqdan məhrum edilməsini istəyib.

Xatırladaq ki, qəza 2023-cü ilin noyabrında Sabunçu rayonu ərazisində baş verib. Azər Maqsudov Kliniki Tibbi Mərkəzin (KTM) Toksikologiya şöbəsinin müdiridir.

A.Maqsudova Cinayət Məcəlləsinin 263.2-ci (yol hərəkəti və ya nəqliyyat vasitəsinin istismarı qaydalarının pozulması - ölümlə nəticələndikdə) maddəsi ilə ittiham irəli sürülüb.

Onun barəsində istintaq dövrü müddətində həbslə bağlı olmayan qətimkan tədbiri seçilib.

## Aİ-95 markalı benzinin istehsalı azalıb

**Bu ilin yanvar-sentyabr aylarında Azərbaycanda 1 067,54 min ton Aİ-92 markalı avtomobil benzini istehsal olunub, bu da illik müqayisədə 2,1% artım deməkdir.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, hesabat dövründə ölkədə 13,8 min ton Aİ-95 markalı avtomobil benzini istehsal olunub ki, bu da ötən ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə 45,02% azalıb.

Qeyd edək ki, bu ilin yanvar-sentyabr aylarında ölkədə 1 081,3 min ton avtomobil benzini istehsal olunub, bu da illik müqayisədə 1% çoxdur.



## Saleh Səmədovun oğlu işdən çıxarıldı

**İmişli Rayon Ağsaqqallar Şurasının sabiq sədri Saleh Səmədovun həbsindən sonra ailəsinə aid digər şəxslər də vəzifələrindən uzaqlaşdırılıb. Qafqazinfo xəbər verir ki, onun ikinci oğlu Toğrul Səmədov Ədliyyə Nazirliyinin Penitensiar Xidmətində fəaliyyət göstərən 3 saylı məntəqə tipli cəzaçəkmə müəssisəsinin rəisi vəzifəsindən azad edilib. Bu addım ədliyyə orqanlarında xidmətində aşkar edilmiş nöqsanlarla əlaqədar atılıb.**

Xatırladaq ki, Saleh Səmədov daha əvvəl 9 May Faşizm üzərində Qələbə Günü tədbirində sinəsində "Georgi lenti" ilə çıxış etdiyi üçün tənqid olunmuş və Azərbaycan Ağsaqqallar Şurasının üzvlüyündən xaric edilmişdi.

İmişli Rayon İcra Hakimiyyətində Yeni Bəhramtəpə İnzibati Ərazi Dairəsi üzrə nümayəndənin müavini işləyən Saleh Səmədovun oğlu Kamran Səmədov bir müddət əvvəl tutduğu vəzifədən azad edilib.

Saleh Səmədov özü isə beş ay öncə Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən mənimsəmə ittihamı ilə həbs olunub.

## Yolu keçmək istəyən qadını maşın vurdu

**Gəncədə piyadanın vurulması ilə nəticələnən iki yol-nəqliyyat hadisəsi baş verib. Hadisələrdən biri şəhərin Şah İsmayıl Xətai prospektində qeydə alınıb.**

Belə ki, prospektlə hərəkətdə olan "QAZ 3110" markalı minik maşını yolu keçmək istəyən orta yaşlı qadını vurub. Piyada xəstəxanaya yerləşdirilib, vəziyyətinin orta ağır olduğu bildirilir.

Digər hadisə isə şəhərin Mirzə Abbas Abbaszadə küçəsində baş verib. 1986-cı il təvəllüdlü K.Quliyeva yolu keçən zaman avtomobil onu vurub. Qadın xəstəxanaya yerləşdirilib, hazırda ona yardım edilir. Baş verən ərazilərə polis əməkdaşları cəlb edilib. Faktlarla bağlı araşdırmalar aparılır.

YENİ MÜSAVAT
N 195 (8805) 28 oktyabr 2025

**Son günlər “AzParkinq”lə bağlı ictimai narazılıq yenidən gündəmə gəlib. AzTV-nin hazırladığı süjetdə sürücülərin çoxsaylı şikayətlərinə yer verilib. İnsanlar haqlı olaraq sual edirlər: park üçün yığılan pullar hara gedir, kimə xidmət edir, nə üçün şəffaflıq yoxdur?**

# AYNA xaosun “güzgüsü” qismində - yığılan pulların aqibəti

## “AzParkinq”lə bağlı ictimai narazılıq kütləviləşir, dövlət televiziyası da sürücülərin şikayətini işıqlandırdı - ekspertlər şəffaflığı yoxlamağa çağırdı




**Deputat Vüqar Bayramov bildirib ki, parklanma sistemindən əldə edilən gəlirlər yalnız şəhər infrastrukturunun yaxşılaşdırılmasına, vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsinə xərclənməlidir:** “Əgər bu vəsaitlər şəhərin abadlaşdırılması, yol nişanlarının yenilənməsi, ictimai dayanacaqların qurulması və ya elektron sistemlərin təkmilləşdirilməsi üçün istifadə olunmursa, deməli, burada şəffaflıq problemi var. Cəmiyyət hər ay yığılan məbləğ barədə məlumatlandırılmalıdır”.

Deputat həmçinin qeyd edib ki, parklanma prosesinə elektron nəzarət sisteminin tətbiqi vacibdir. Bu sistem həm gəlirlərin real qeydiyyatını aparar, həm də vəsaitlərin təyinatından yayınmasının qarşısını alar.

**Nəqliyyat eksperti Ərşad Hüseynov** isə mövzuya beynəlxalq təcrübə kontekstində yanaşır. Onun sözlərinə görə, bir çox ölkələrdə parklanma yerlərindən yığılan vəsaitlər yalnız həmin dayanacaqların saxlanması üçün deyil, bütövlükdə şəhər nəqliyyat sisteminin inkişafına yönəldilir: “Məsələn, bu pullar ictimai nəqliyyatın modernləşdirilməsinə, yeni avtobusların alınmasına, velosiped yollarının çəkilməsinə və hətta hava çirkliliyinin azaldılması proqramlarına xərclənir. Beləliklə, parklanma gəlirləri təkcə xidməthaqqı deyil, həm də şəhər ekosisteminin balanslaşdırılması üçün bir vasitədir”.

Ekspertin fikrincə, bu praktika həm şəhər büdcəsinin yükünü azaldır, həm də vətəndaşın həyat keyfiyyətini artırır. Lakin Bakıda yığılan pulların istiqaməti qaranlıq qalır.

**İqtisadçı Natiq Cəfərli** məsələni daha sərt şəkildə şərh edib. Onun fikrincə, “AzParkinq”in fəaliyyəti xidmət fəlsəfəsindən uzaqdır: “Dünyanın əksər şəhərlərində istirahət və bayram günləri, axşam saat 20:00-dan sonra parklanma pulsuz olur. Bizdə isə yalnız bazar günü bu qayda tətbiq edilir. Bayram günləri belə pulludur. Bizim qalstuklu məmurlar parklanmanın fəlsəfəsini anlamırlar. Onlar düşünürlər ki, əsas məqsəd pul yığmaqdır. Halbuki məqsəd insana xidmətdir, pul isə yalnız vasitə olmalıdır”.

Məsələnin mahiyyəti sadədir: sürücü hər gün ödədiyi 1-2 manatın qarşılığında şəffaflıq, xidmət və infrastruktur gözləyir. Əgər bu pullar şəhərin yollarına, dayanacaqlarına, işıqlandırılmasına və təhlükəsizlik sisteminə yönəlmirsə, o zaman “AzParkinq”in varlığı nəyə xidmət edir?

**Nəqliyyat sahəsi üzrə ekspert Elməddin Muradlı “Yeni Müsavat”a bildirib ki, qanuna görə, yığılan pullar yol hərəkəti təhlükəsizliyinin gücləndirilməsinə, yol infrastrukturunun inkişaf etdirilməsi və bərpasına xərclənməlidir:** “Yığılan pullar sistemdə görünür. Nağdsız ödənişdir və bütün sistem bir hesab üzərində qurulub. Ödənişlərin necə xərcləndiyini isə deyə bilmərik. Bununla bağlı əlimizdə hesabat yoxdur”.

**Liberal İqtisadçılar Mərkəzinin sədri Akif Nəsirli deyir ki, “AzParkinq” dövlət şirkətidir və bazar iqtisadiyyatı şəraitində bu cür xidmətlər ona həvalə edilməməlidir:** “Belə xidmətlərin dövlət şirkətinə həvalə edilməsi iqtisadiyyatın keçid dövrü ilə bağlıdır. Lakin Azərbaycan hörkuməti elan edir ki, bazar iqtisadiyyatına keçidi başa çatdırıb. Deməli, bazar iqtisadiyyatına keçid başa çatıbsa, yavaş-yavaş dövlətin göstərdiyi cidmətlər öz yerini özəl şirkətlərə verməlidir. Bu şirkətlərin bütün fəaliyyəti şəffaf olmalıdır. "AzParkinq"in xidmətindən istifadə edən və etməyən şəxslər istənilən an maneəsiz olaraq onun fəaliyyəti ilə tanış olmaq hüququna malikdir. Çünki bu, birbaşa cəmiyyətə xidmət edən şirkətdir. Ona görə də hesab edirəm ki, “AzParkinq”in yalnız xərcləri deyil, bütün fəaliyyəti şəffaf qurulmalıdır. Çox təəssüflər olsun ki, bu, belə deyil. Mütəxəssis olaraq fəaliyyəti ilə tanış ola bilmirəm. Onun xərcləri ilə istənilən vətəndaş internet vasitəsilə tanış olmalı və qiymət verməlidir. Bunu edə bilmirik. Deməli, bu fəaliyyət şəffaf deyil".

Qeyd edək ki, parklanmadan daxil olan vəsaitin xərclənməsi istiqamətləri 2023-cü il 29 iyul tarixli “Nəqliyyat vasitələrinin ödənişli parklanmasından daxil olan vəsaitdən istifadə qaydası”nın təsdiq edilməsi haqqında Fərmanla müəyyən edilib.

- parklanma yerlərinin idarə olunması və saxlanılması (kommunal, mühafizə, təsərrüfat və rabitə xərcləri);
- parklanma ilə əlaqədar yol infrastrukturu xərclərinin ödənilməsi, maddi və qeyri-maddi aktivlərin, o cümlədən parkomatların, foto və ya video qeydiyyat funksiyalarına malik xüsusi texniki vasitələrin alınması və onların yararlı vəziyyətdə saxlanılması;
- parklanma ilə əlaqədar tətbiqlərin yaradılması və onların saxlanılması;
- parklanma ilə bağlı maarifləndirmə və təbliğat işləri;
- nəqliyyat vasitələrinin saxlanılması üçün balanslarında olan qaraj və duracaqların idarə olunması və saxlanılması;
- yol hərəkətinin təşkilinin texniki vasitələrinin tətbiq edilməsi;
- parklanma qaydalarını pozmuş şəxslərin inzibati məsuliyyətə cəlb edilməsi üzrə tədbirlər görülməsi üçün zəruri texniki vasitələrin alınması, parklanma qaydalarını pozmuş şəxslərə inzibati xəta haqqında iş üzrə materialların göndərilməsi ilə bağlı poçt xərclərinin ödənilməsi;
- işçilərinin sosial müdafiəsinin gücləndirilməsi.

❑ **Şahanə RƏHİMLİ,**
**“Yeni Müsavat”**



# Ramiz Mehdiyevin adı keçən qətl işi - şok təfərrüat

**Ramiz Mehdiyevin istintaqa cəlb olunması onun adına bağlı olan, onun çətiri altında baş verən dəhşətli olayları, qətl işlərini yenidən gündəmə qaytarıb. 15 il əvvəl Xaçmazda evində öldürülən məşhur iş adamı, “Arzu” Ticarət Mərkəzinin sahibəsi Nəcimə Babayevanın qətl işi də bu qəbildəndir.**

2010-cu il sentyabr ayının 15-də öz evində vəhşicəsinə qətlə yetirilən Nəcimə Babayevanın qatili və ya qatilləri, qətlin sifarişçiləri bu günə kimi istintaqdan kənarda qalıb, saxlanılıblar. Mərhum iş adamının qızı qətlin sifarişli olduğunu və Ramiz Mehdiyevin çətiri altında törədildiyini bildirir.

Qeyd edir ki, analarının qətlinin araşdırılması üçün ötən illər ərzində göstərdikləri çabalara görə hər zaman olduğu kimi hazırda da böyük bir təhlükə qarşısındadırlar. Nəcimə Babayevanın qızı Gülnarə Həbibova istintaqa son dərəcə ilginc müraciət təqdim edib.

Gülnarə Həbibova 24 oktyabr 2025-ci ildə etdiyi müraciətində bildirir:

“Anamı Ramiz Mehdiyevin çətiri altında qorunan icra başçısı məhv etdi”.

Müraciətdə Gülnarə Həbibova açıq şəkildə bildirir ki, anasının ölümü Xaçmaz Rayon İcra Hakimiyyətinin sabiq başçısı Şəmsəddin Xanbabayevin, onun “kassiri” və müavini Akif Mərdanovun, həmçinin bölgədəki imkanlı şəxslərdən ibarət maraqlı qruplaşmanın sifarişi ilə baş verib: “Anam qətlindən öncəki 3 il ərzində Xaçmaz rayonunda bu qruplaşmanın təzyiqlərinə, şantajına, saxta yoxlamalarına qarşı təkbaşına mübarizə aparırdı. Onlar anamın əmlakını ələ keçirmək istəyirdilər. Anam məhkəmələri uddu, lakin 15 sentyabr 2010-cu ildə evində vəhşicəsinə qətlə yetirildi”.

**“Ramiz Mehdiyevin kürəkəni Xaçmazın kuratoru idi”**

Şikayətdə qeyd olunur ki, həmin dövrdə Prezident Administrasiyasının Regional idarəetmə şöbəsində Xaçmaz rayonu üzrə kurator vəzifəsini Ramiz Mehdiyevin kürəkəni İlham Əlisəftər oğlu Əliyev icra edib: “Anam dəfələrlə Prezident Administrasiyasına, Baş Prokurorluğa, Daxili İşlər Nazirliyinə şikayətlər göndərmişdi, lakin heç bir reaksiya verilmədi. Sonradan məlum oldu ki, o zaman Xaçmaz rayonuna kurator təyin olunan şəxs Ramiz Mehdiyevin kürəkəni İlham Əliyev imiş. Həmin şəxs sonradan iki çağırış Milli Məclisin deputatı seçildi və bu gün də rayonda milyonluq əmlaklara sahibdir”.

Gülnara Həbibova iddia edir ki, Şəmsəddin Xanbabayev Ramiz Mehdiyevlə çox yaxın münasibətdə olub, Mehdiyevlər ailəsinin Xaçmazdakı əmlaklarının qorunması da məhz bu əlaqə ilə təmin edilib.

**“Qətlin sifarişli olması versiyası istintaqda qəsdən gizlədildi”**

**Qızının sözlərinə görə, anasının sifarişlə qətli əmlakın ələ keçirilməsinə görə olub. Lakin uzun illər boyu istintaq orqanları bu versiyanı qəsdən kölgədə saxlayıblar:** “İstintaqın ilk günlərindən bu versiyanın üzərindən ötəri keçdilər. Çünki Xanbabayev təkcə rayon rəhbəri deyildi, həm də Ramiz Mehdiyevin adamı idi. O, yalnız öz səlahiyyətləri ilə yox, həm də onu qoruyanların resurslarından istifadə etməklə istintaqın obyektiv aparılmasına mane oldu”.

15 ildir açılmayan bu qətl işinin motivi ortadadır. Qətldən öncə Nəcimə Babayevadan bazarın zor gücünə alınması üçün Ramiz Mehdiyevin himayəsində olan icra başçısı Şəmsəddin Xanbabayev və ətrafı tərəfindən ona təzyiqlər göstərilib. Lakin Nəcimə Babayevanın təzyiqlərə tab gətirməsi, ona qarşı başladılmış məhkəmələrdən qalib ayrılması “mehdiyevçi”lərin planlarını pozub. Bundan sonra Nəcimə Babayeva evində öldürülüb, qətlin ailə-məişət zəminində törədilməsi haqda yanlış versiya ortaya atılıb. İstintaq qətlindən öncə Nəcimə Babayevanın əleyhinə aparılan qaralama kampaniyasını diqqətdən kənar qoyub. Qətldən sonrakı illərdə onun övladları təqib və təzyiqlərə məruz qalıblar. Ailənin qətlin üstünün açılması üçün yazdıqları şikayətlər seyflərdə qalıb, Gülnarə Həbibova və ailəsinə qarşı saxta ittihamlar irəli sürülüb.

“Görünür, arxasında Ramiz Mehdiyev olan şəxslərin adı hallanan bir ölümün açılmasını tələb etmək həyatımız bahasına başa gələ biləcək bir əməl imiş”, - deyə Gülnarə Həbibova müraciətində qeyd edir.

“Mənim və ailəmin başına gələ biləcək faciələrə görə məsuliyyət daşıyacaqlar. Xahiş edirəm, anamın qətli ilə bağlı təqdim etdiyim məlumatları yenidən əməliyyat qaydasında araşdırasınız. Mənim və ailəmin başına gələ biləcək faciələrin qarşısını almaq üçün bu cinayət işinə müdaxilə vacibdir”.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 195 (8805) 28 oktyabr 2025

## Səməd Seyidov: “Bakı Avrasiyanın xəritəsini yenidən formalaşdırır”



**“Azərbaycanla Ermənistan arasında sülh və etimad quruculuğu istiqamətində rəsmi Bakının mövqeyi birmənalıdır. Faktiki olaraq, bu gün gözümüzün önündə regionda yeni beynəlxalq münasibətlərin formalaşması prosesi gedir. Bu da Azərbaycanın yaratdığı yeni reallığın nəticəsidir”.**

“Yeni Müsavat” xəbər verir ki, bu sözləri Teleqraf-a Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov deyib.

Komitə sədrinin görə, bu ilin avqustun 8-də Vaşinqtonda imzalanmış (Azərbaycan, ABŞ və Ermənistan) razılaşmalar artıq real müstəvidə icra edilir: “Prezident İlham Əliyevin bu yaxınlarda Qazaxıstana səfəri, orada keçirdiyi yüksək səviyyəli görüşlər fonunda iki ölkə arasında münasibətlərin yeni mərhələyə yüksəldiyinin şahidi oluruq. Bu amil faktiki olaraq, Avrasiyanın xəritəsini dəyişir. Elə əlaqələr formalaşır ki, bu regionda yaşayan ölkələrə də təsir göstərəcək”.

Səməd Seyidov məhz Qazaxıstandan Ermənistana göndərilən taxılın Azərbaycandan keçidinin təmin edilməsinin bu kontekstdə mühüm amil olduğunu qeyd edib: “Bu, əslində tarixi və xüsusi əhəmiyyət kəsb edən məsələdir. Azərbaycanın sülhsevər siyasətinin təntənəsi özünü göstərdi. Kommunikasiyaların açılması ilə bağlı ilk addımı məhz rəsmi Bakı atmış oldu. Ölkə başçısının da bəyan etdiyi kimi, 2028-ci ilə qədər açılacaq Zəngəzur dəhlizi (Tramp marşrutu) bu mənzərəni tam şəkildə dəyişdirəcək. Bununla da ölkəmiz əlaqələrin siyasi cəhətdən necə təşkil edildiyinin nümunəsini ortaya qoydu”.

“Azərbaycan üzərindən daşınan yüklərə məhdudiyyətlərin aradan qaldırılması, vətəndaş cəmiyyəti təmsilçilərinin İrəvana səfəri, Milli Məclis sədrinin ermənistanlı həmkarı ilə keçirdiyi görüşlər yeni dünyanın əlaqələrinin cizgiləridir. Bütün bunlar uzunmüddətli və bütün xalqlar üçün xeyirli sülhün tam şəkildə bərqərar olmasına dəlalət edir”, - deyə deputat əlavə edib.

# “Rusiya ilə münasibətlərimiz ötən ilin dekabrına qədərki kimi olmayacaq”

## Pənah Hüseyn: “Ramiz Mehdiyev məsələsinə rəsmi aydınlıq gətirilməsinə ehtiyac var”

**Bu gün Azərbaycanın çağdaş siyasi tarixində özünəməxsus yeri olan Azərbaycan Xalq Partiyasının sədri, sabiq baş nazir Pənah Hüseynin doğum günüdür. O, 68 yaşını qeyd edir. “Yeni Müsavat” Pənah Hüseynlə doğum günü ilə bağlı söhbətləşib. Müsahibəni təqdim edirik:**

**- Pənah bəy, bəlkə də Azərbaycanda ildə iki dəfə doğum günü təbriki alan yeganə siyasətçisiniz - həm 8 avqustda, həm də 28 oktyabrda. Bu maraqlı situasiya necə yaranıb?**

- Mənim yaxınlarım, atam və anam söyləyirdi ki, əslində avqustun 8-i ya da 9-u doğulmuşam. Amma şəhadətnaməmdə rəsmi olaraq oktyabrın 28-i qeyd olunub. Açığı, özüm də dəqiq bilmirəm necə olub, sadəcə, deyirdilər ki, sən yay ayında dünyaya gəlmisən, bu da, təbii ki, avqusta uyğun gəlir.

**- Adətən doğum gününüzü necə qeyd edirsiniz - sakit, ailəvi şəkildə, yoxsa dost çevrəsində, siyasi yoldaşlarla bir arada?**

- Sözün doğrusu, mən adətən doğum günümü qeyd etmirəm. Çünki dəqiq bilmirəm də (gülümsəyir). Amma elə vaxtlar olub ki, ad günümü qeyd etmişəm. Məsələn, 20 yaşım olanda tələbə dostlarım bir dəfə qeyd etmişdilər. O vaxtkı “İnturist”in, hansı ki, artıq sökülüb - güzgülü zalında tələbə yoldaşlarım ad günü keçirməklə mənə hədiyyə etmişdilər.

Daha sonra Bayıl həbsxanasında ad günümü qeyd etmişəm. Həmin vaxt “Yeni Müsavat” qəzetinin baş redaktoru Rauf Arifoğlu, Sərdar Cəlaloğlu, Arif Hacılı, mərhum İbrahim İbrahimli və başqaları ad günümü qeyd etmişdik. Başqa xüsusi bir ad günümü qeyd etməyimi xatırlamıram.

**- Son günlər Rusiya-Azərbaycan münasibətlərində diqqətçəkən dinamika müşahidə olunur. Rusiya Prezidenti Vladimir Putinin Prezident İlham Əliyevə zəngi, “Sputnik Azərbaycan” rəhbərliyindən olan şəxslərin azadlığa buraxılması və Rusiyada həbsdə olan azərbaycanlı iş adamı Yusif Xəlilovun sərbəst qalması bu fonda diqqət çəkir. Siz bu hadisələr zəncirini necə qiymətləndirirsiniz? Bu, Bakı-Moskva münasibətlərində yeni mərhələnin başlanğıcı sayıla bilərmi?**

- Mənim fikrimcə, bunu daha çox normallaşdırma prosesi kimi dəyərləndirmək olar. Çünki ötən ilin dekabrında iki dövlət arasında ciddi bir gərginlik mövcud idi. İndi bu gərginliyin aradan qaldırılması səyləri müşahidə olunur. Amma mənim fikrimcə, artıq heç vaxt Azərbaycan-Rusiya münasibətləri ötən ilin dekabrına qədərki kimi olmayacaq. Daha doğrusu, əslində aşkar olan budur, bu kimi gərginliklər zaman-zaman müəyyən məqamda yetişirdi, sadəcə, ötən ilin sonları və bu il açıq formada üzə çıxdı. Fikrimizcə, Rusiya tərəfi Azərbaycanla bundan sonrakı münasibətlərini daha bərabər səviyyədə qurmalı olacaq və buna vərdiş etməli olacaq. Azərbaycan artıq fərqli geosiyasi məkandadır. Əvvəlki dövrlərdən fərqli olaraq, qlobal proseslərin həm obyekti, həm də subyekti kimi çıxış edir.



Artıq biz bu münasibətləri əgər əsasən Rusiya tərəfdən asılı hesab etsək, Moskvanın Cənubi Qafqazda və bütövlükdə Cənub-Şərq istiqamətində mənfi siyasətini davam etdirməsi halında oxşar gərginliklərin yenidən yaşanması gözləniləndir. İstənilən halda, Azərbaycan öz strateji hədəflərinə uyğun olaraq, yeni Türk Dövlətləri Təşkilatı çərçivəsində, digər müttəfiq ölkələrlə əlaqələr və münasibətlər, o cümlədən müttəfiq münasibətlər çərçivəsində müstəqil güc mərkəzi və müstəqil geosiyasi qütb kimi proseslərdə çıxış etməlidir və edir. Bu gün də artıq görünür. Rusiya ilə münasibətlər də bu kontekstdən irəli gələrək müəyyən transformasiyaya uğrayır və gərginliyin aradan qaldırılması üçün enişli addımların gerçəkləşməsi ilə müşahidə oluna bilər.

**- Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşması istiqamətində də müəyyən irəliləyişlər müşahidə olunur. Rəsmi Bakı bir sıra humanitar addımlar atdı, qarşı tərəfə jestlər etdi. Sizcə, bu, sülh müqaviləsinin imzalanmasına nə dərəcədə yaxınlaşdırır? Sülh müqaviləsi hansı ölkədə imzalana bilər? Bəziləri bu məsələdə Türkiyə və ya Gürcüstanın adını çəkir. Siz necə düşünürsünüz?**

- Əlbəttə, bu müxtəlif hadisələrin gedişatından asılıdır. Mən prinsipcə hətta Ermənistandakı gözlənilən parlament seçkilərinə qədər də sülh müqaviləsinin imzalanmasını mümkün sayıram, istisna etmirəm. O ki qaldı Azərbaycanın şərtlərinə, onlar haqlı şərtlərdir. Ermənistanın konstitusiyasındakı dəyişiklik daxil olmaqla, həm də sonrakı qeyri-şərtlər qoyula bilər. Orada bildiyiniz kimi, dördüncü mərhələ var: bu cür müqavilələrin təsdiqlənməsi, parlament təsdiqi və həmin təsdiqdən sonra qüvvəyə minməsi qeyri-şərtini qoymaqla, fikrimcə, Ermənistan hətta iyun ayında keçiriləcək seçkilərdən əvvəl də sülh müqaviləsini imzalaya bilər. Hətta bəzi siyasi şərhçilər ilin sonuna qədər sülh müqaviləsinin imzalanmasının mümkünlüyünü bildirirlər.

Real bir imkan yaranıb. Vaxtı ilə “Qafqaz evi” ideyası var idi, indi isə daha geniş çərçivəli region birliyi formalaşa bilər. Ermənistanın gələcəkdə Türk Dövlətləri Birliyində müşahidəçi və ya başqa statusla təmsil olunması da mümkündür. Təhlükəsizlik sisteminin dəyişməsi, yəni Ermənistanın təhlükəsizliyinin və Türk Dövlətləri Birliyinin təhlükəsizliyinin təminatı, birinci növbədə Azərbaycanın təhlükəsizlik təminatı altına girməsi və bu kimi istiqamətlərdə inkişafı mümkün edir. Əslində bu, Ermənistan üçün bəlkə də dövlətin mövcudluğu və regionda qalması üçün son şanslardan biridir.

O ki qaldı sülh müqaviləsinin hansı ölkədə imzalanmasına, Rusiya gedən proseslərdə məyus görünür, amma bu Rusiyanın siyasətinin nəticəsidir. Keçmiş postsovet ölkələrinə qarşı aqressiv münasibətinin əvvəldən zərərli və qüsurlu olmasından irəli gələn vəziyyətdir. Bəzi ekspertlər sülh müqaviləsinin Moskvanın səviyyəsində imzalanmasını təklfi edir. Hətta bu təklif Rusiyanın Xarici İşlər Nazirliyi səviyyəsində səsləndirilib. Prinsip etibarı ilə mənim üçün bunun heç bir əhəmiyyəti yoxdur. Önəmli olan sülh müqaviləsinin öz təyinatına çatmasıdır. Yəni regionda, o cümlədən konkret olaraq Azərbaycan və Ermənistan arasında münasibətlərin fundamental rolu diplomatik müqavilə vasitəsilə təmin olunmalıdır. Məncə, bu, kifayət qədər realdır.

Bunun üçün Ermənistan bölgə və Azərbaycan üçün təhdidedici olan siyasətindən əl çəkməlidir. Orada revanşist qüvvələrə cavab verilməli, Azərbaycanın təhlükəsizliyi üçün təhdid olan çıxışlar və Ermənistanın hücum silahları ilə silahlanması sona çatdırılmalıdır. Ölkələr arasında tədricən humanitar və insani münasibətlərin bərpası isə çox çətin görünür və bunun da səbəbləri var. 30 illik münaqişə, bu münaqişədən əvvəl müharibə, bu müharibədə iştirak edən itkilər, dağılan ailələr və insanlar - bunların hamısı nəzərə alınmalıdır. Fikrimcə, strateji olaraq gələcəkdə belə bir insani münasibətlərin normallaşma prosesinin başlanması mümkündür. Amma indiki halda əlbəttə ki, bu dövlətlər arasında münasibətlərin normal səviyyəyə gətirilməsi əsas hədəfdir.

**- Hazırda Azərbaycan ictimai-siyasi gündəminin əsas mövzularından biri Ramiz Mehdiyev işi olaraq qalır. Hər keçən gün bu prosesdə yeni, qalmaqallı və maraqlı detallar üzə çıxır. Sizcə, istintaqın gedişində bu iş üzrə daha hansı adların hallanması və ya yeni həbslərin baş verməsi ehtimalı varmı?**

- Hələ ki Ramiz Mehdiyev işi ilə bağlı mətbuatda nə təkzib, nə də təsdiq olunmamış məlumatlar var. Ona görə də bu məlumatlara şərh verməyi doğru saymıram. Təxminən 2 həftədən artıq bu proses gedir. Bu cür məsələlər istənilən halda, motivasiyasından və formasından asılı olmayaraq, pozitiv tərəfə malikdir, yəni cəmiyyətdə müəyyən katalizator rolunu oynaya, məsələnin simvolik təmizlənməsinə xidmət edə bilər. Lakin məsələnin bu şəkildə uzanması, açığı, müəyyən fəsadlar da yaratmağa başlayıb. Ona görə də rəsmi dairələr tərəfindən aydınlıq gətirilməsi vacibdir. Məsələnin artıq istər regional, istər regiona yaxın müəyyən dairələr və ya klanlararası proses şəklinə düşməsinə yol verməmək olmaz. Yəni aydınlığa ehtiyac var. Aydınlıq gətirilməli, yekun xarakterli addımlar atılmalıdır. Təəssüf ki, bunlar yoxdur”.

❑ **Xalidə GƏRAY,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 195 (8805) 28 oktyabr 2025

# Bakı Paşinyanı qoruyur iddiası - revanşistlər panikada

## Qaragüruh qüvvələr Azərbaycanın Ermənistanla bağlı son jestini sabotaj etməyə başlayıb - rəy

**Ermənistandakı revanşist media və müxalifət Prezident İlham Əliyevin Azərbaycan ərazisindən Ermənistana yüklərin tranzitinə qoyulan məhdudiyyətlərin götürüldüyü haqda açıqlamasını sabotaj etməyə davam edir. Bu qərarın Ermənistan üçün müsbət tərəfini görməzdən gələn qaragüruhçu qüvvələrə görə, belə bir addımın iki səbəbi ola bilər: ya Əliyev bununla Paşinyana seçkiqabağı dəstək verir, ya da qarşılığında daha bir güzəşt əldə edib.**

Bu barədə "Hraparak" nəşri yazıb.

Ermənistan müxalifəti öz növbəsində keçmiş Laçın dəhlizinin guya vaxtilə blokadaya alındığını xatırladaraq, taxılın nisbi təhlükəsizliyinə şübhə ilə yanaşıb. Nəşr yazıb ki, guya hakim komanda daxilində də bir çoxları baş verənləri inamsızlıqla qəbul edirlər.

Təbii ki, erməni müxalifəti və onlara bağlı media resursları qərəzlidir. Ermənistanın xeyrinə nə olsa belə, onlar buna skeptik yanaşır, Paşinyanı Azərbaycana işləməkdə ittiham edirlər.

Xatırladaq ki, məlum qadağanın aradan qaldırılmasına görə Paşinyan, eləcə də iqtisadiyyat naziri Gevorq Papoyan minnətdarlıqlarını bildirərək, yaxın vaxtlarda Qazaxıstan taxılının ilk partiyasının Azərbaycandan Ermənistana göndəriləcəyini qeyd ediblər. Ermənistan hakimiyyəti bunu ciddi diplomatik qələbə kimi təqdim edir.

Bəs erməni radikal-revanşistlərin iddialarının Ermənistan ictimai rəyində hakimiyyət əleyhinə işləməsi mümkünmü? Cəmiyyət daha çox kimə inanır və ya inanacaq?

**Deputat Elçin Mirzəbəyli "Yeni Müsavat"a bildirdi ki, Ermənistanda bu tip iddiaların yenidən aktuallaşdırılması təsadüfi deyil:** "Sülh gündəminin real müstəviyə keçməsi, Azərbaycanla münasibətlərin normallaşması perspektivi Ermənistan daxilindəki müəyyən siyasi dairələrin maraqlarına ziddir. Revanşist media strukturları, xüsusilə də keçmiş hakimiyyətə yaxın qruplar üçün sülh prosesi ictimai təsir vasitələrinin itirilməsi deməkdir. Onlar "blokada", "təhlükə", "təslimçilik" kimi ritorikalarla öz elektoratını qorumağa, Ermənistan cəmiyyətində qorxu sindromunu yenidən canlandırmağa çalışırlar. Bu ritorikanın kökündə isə müharibə psixologiyasından çıxmaq istəməyən siyasi zehniyyət dayanır. Halbuki yeni regional reallıqda Azərbaycan diktə edən tərəf deyil, real əməkdaşlıq təklif edən tərəf kimi çıxış edir. Azərbaycanın bu addımı həm Bakı-İrəvan dialoquna inamı artırmaq, həm də regionda nəqliyyat əlaqələrinin bərpasına töhfə vermək məqsədi daşıyır. Prezident İlham Əliyevin məlum açıqlamasında da bu məqam açıq şəkildə ifadə olunur: Azərbaycan blokada siyasəti yürütmür, əksinə, postmünaqişə mərhələsində iqtisadi inteqrasiyanın təşəbbüskarıdır.

Bu yanaşma həm beynəlxalq ictimaiyyət, həm də regionun sülh tərəfdarları tərəfindən məsuliyyətli liderlik nümunəsi kimi qəbul edilir. Ermənistandakı revanşist qüvvələr isə Azərbaycanın bu xoşməramlı addımını xislətlərinə uyğun olaraq şərh edir və erməni ictimaiyyətini çaşdırmağa çalışırlar".




**Deputat qeyd etdi ki, Ermənistanın daxili informasiya mühitində obyektivlik çox vaxt təhrif olunur:** "Çünki reallıqlar revanşistlərin illərlə formalaşdırdığı "Azərbaycan təhdidi" mifini dağıdır. Ermənistan cəmiyyətinin böyük hissəsi artıq müharibə ritorikasından bezib. 2020-ci ildən sonra ard-arda baş verən sosial-iqtisadi çətinliklər, mühacirət və siyasi xaos fonunda əhalinin bir qismi reallığı qəbul etməyə məcbur olub. Son ictimai rəy sorğuları da göstərir ki, Ermənistan vətəndaşlarının əhəmiyyətli hissəsi sülh sazişinin imzalanmasını dəstəkləyir. Bu isə o deməkdir ki, radikal dairələrin təxribatçı bəyanatları artıq əvvəlki kimi kütləvi təsir gücünə malik deyil. Lakin informasiya manipulyasiyası təhlükəsi hələ də qalır. Ona görə də Ermənistan rəhbərliyinin informasiya siyasəti daha sistemli və şəffaf olmalı, Azərbaycanla açıq dialoqun siyasi dəyəri ictimaiyyətə aydın şəkildə izah edilməlidir".

**E.Mirzəbəyli vurğuladı ki, Azərbaycan regionda sülh və sabitliyin strateji dayağı kimi çıxış edir:** "Prezident İlham Əliyevin qərarı revanşist dairələrin təbliğatına baxmayaraq, humanist və uzaqgörən siyasi qərardır. Ermənistanın gələcəyi, onun iqtisadi inkişafı və təhlükəsizliyi məhz bu yanaşmanın qəbul edilməsindən keçir".

**❑ Etibar SEYİDAĞA,
"Yeni Müsavat"**

# Putin hərbi geyimdə Ukraynada

## Rusiya Prezidentinin döyüş bölgəsində görünməsi, sadəcə, simvolik bir hadisə deyil - şərh

**Rusiya Prezidenti Vladimir Putin 26 oktyabr 2025-ci ildə Donbas istiqamətindəki birləşmiş qoşun qruplaşmasının komanda məntəqələrindən birinə səfəri zamanı hərbi formada videogörüntülərdə peyda olub. Bu barədə Musavat.com xəbər verib.**




Kremlin sahibinin bu görüntüləri Rusiya dövlət mətbuatı və Kremlin təbliğat kanalları tərəfindən geniş şəkildə tirajlanıb. Moskvaya yaxın tanınmış təbliğatçı Vladimir Solovyov öz Telegram kanalında yazıb ki, prezidentin hərbi formada çıxışı "Rusiya ordusunun Donbasda təşəbbüsü ələ keçirdiyinin" göstəricisidir və "təcili atəşkəsə ehtiyac olmadığı" mesajını ABŞ Prezidenti Donald Trampa ünvanlayır.

Solovyov iddia edir ki, Rusiya ordusu Donbas cəbhəsində sürətlə irəliləyir, Ukrayna ordusu isə hələlik bölgənin təxminən 20 faizini nəzarətdə saxlayır. Onun sözlərinə görə, bu görüntü "Ukrayna üçün psixoloji təzyiq və Qərbə siqnaldır".

Məlumat üçün bildirək ki, görüş zamanı Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov cəbhə xəttindəki vəziyyətlə bağlı Putinə məruzə edib. Kremlin yaydığı məlumatda deyilir ki, Putin ukraynalı hərbçiləri "silahı yerə qoymağa" çağırıb, rus hərbçilərinə isə "mülki şəxslərə yardım göstərilməsi" barədə göstəriş verib.

Putinin hərbi formada işğal etdiyi ərazilərdə görünməsindən sonra bir sıra suallar yaranıb.

Kremlin sahibi nə üçün hərbi geyimə üstünlük verdi?

**AĞ Partiya başqanının müşaviri, siyasi şərhçi Azər Hüseynov** hesab edir ki, Putinin bu mesajı həm daxilə, həm də xaricə yönəlib. Onun sözlərinə görə, Putinin hərbi geyimdə döyüş bölgəsində görünməsi, sadəcə, simvolik bir hadisə deyil, çoxplanlı siyasi mesaj daşıyan addımdır: "Bu, bir tərəfdən ölkə daxilində "liderin cəbhədə olması" imicini gücləndirir, digər tərəfdən isə Qərbə, xüsusilə də Trampa "Rusiyanın hələ də güc amili üzərində dayanmaqda qərarlı olduğu" siqnalını verir.

Bu görüntü həm də Rusiyanın "döyüşən dövlət" imicini möhkəmləndirərək, onun beynəlxalq aləmdəki mövqeyinə təsir göstərir. Bir dövlət başçısının hərbi paltarda döyüş bölgəsində görünməsi əsasən güc nümayişi və siyasi simvolizmin zirvə nöqtəsidir. Bu baxımdan Putinin davranışı həm psixoloji, həm də geosiyasi anlamda mesaj doludur: Rusiya nəinki məğlub olmayıb, əksinə, müharibəni öz milli gücünü və iqtisadi dayanıqlığını sərgiləmək üçün fürsətə çevirməyə çalışır".

**Onun fikrincə, Tramp kimi liderlər üçün bu hadisələr iqtisadi nəticələr baxımından önəmlidir:** "Çünki Trampın idarəetmə fəlsəfəsi siyasi ideologiyadan çox iqtisadi nəticələrə əsaslanır. Putinin hərbi imici və Rusiyanın iqtisadi adaptasiyası ABŞ-nin potensial liderləri üçün də mesajdır: iqtisadiyyat artıq təkcə bazar göstəriciləri ilə deyil, geosiyasi güc balansı ilə ölçülür. Bütün bunların fonunda təbii ki, Tramp bunu nəzərə alacaq".

**Siyasi təhlilçi Aqşin Kərimova görə, Tramp Rusiya-Ukrayna müharibəsinin sonlandırılmasının memarı kimi çıxış etmək istəyir:** "Tramp müharibənin nəticəsi ilə bağlı ABŞ-nin verəcəyi son qərara yaxınlaşdıqca, bunun Rusiyanın xeyrinə arqumentləşdirilməsi hiss olunur. Rusiya isə müharibə ilə bağlı ABŞ-yə qarşı ittiham dilini əməkdaşlıq və sövdələşmə parametri ilə əvəzləyir. Başqa sözlə, Rusiya Donald Tramp-Vladimir Putin münasibətlərindən sonra Ağ Evlə Kremlə bir-birilərinə qarşı ritorik xətlərini yumşaldır.

Rusiyanın Birbaşa İnvestisiya Fondunun baş direktoru və Kremlin ABŞ ilə danışıqlarda üzrə əsas müzakirəçisi qismində çıxış edən Kirill Dmitriyev ABŞ-Rusiya ikitərəfli iqtisadi təkliflərini təkrarlamağa davam edir. Ehtimal ki, bu, Ağ Evlə Kremlin danışıqlarda əldə etdiyi şifahi razılıqlara əsaslanır.

Rusiya bu amili ABŞ-ni Ukraynaya "Tomohawk" raketləri vermək qərarından çəkindirmək üçün tərtib edilən güzəşt modeli kimi təqdim edir. Buna baxmayaraq, Rusiya ABŞ-yə qarşı təhdid lüğətindən də istifadə edir - ancaq daha ehtiyatla.

Moskvanın niyə "Tomahawk" raketlərinin Ukraynaya göndərilməsi ideyasına qarşı çıxdığını başa düşmək asandır. 2500 kilometrə qədər potensial uçuş məsafəsi ilə bu güclü raketlər Ukrayna ordusuna Rusiyanın dərinliklərindəki hərbi və sənaye obyektlərinə qarşı hazırkı uzaqmənzilli zərbələr kampaniyasını radikal şəkildə genişləndirməyə imkan verə bilər. Bu, Rusiyanın Ukraynadakı hərbi kampaniyasının yaratdığı nəzarət zolağına əsaslı təsir göstərməsə də, proses Putin hakimiyyətinin legitimliyi üçün daxili çatları dərinləşdirə bilər".

**❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 195 (8805) 28 oktyabr 2025

# Bakı Ermənistana daha bir qapı açır - mühüm anlaşma

## Azərbaycan Rusiya məhsullarının da bu ölkəyə daxil olmasına icazə verməyə hazırdır - gözlənti



***“Azərbaycan Rusiya məhsullarının Ermənistana daxil olmasına icazə verməyə hazır olduğunu açıqlayıb”.***

Bunu Rusiya baş nazirinin müavini Aleksey Overçuk deyib.

“İki gün əvvəl Azərbaycan tərəfi Rusiya məhsullarının öz ərazisindən Ermənistana daşınması üçün Azərbaycan dəmir yollarından istifadənin mümkünlüyünü təsdiqlədi. Bu baxımdan biz də çox maraqlı irəliləyişlər əldə etmişik. Rusiya Dəmir Yolları hazırda regional həmkarları ilə birlikdə bu daşımaların təşkili üzərində işləyir. Eyni zamanda bu yeni logistika marşrutunun hazırlanması üçün Kənd Təsərrüfatı Nazirliyinə müvafiq göstərişlər vermişik”, - Overçuk bildirib.

Beləcə, Bakı Ermənistana faktiki daha bir qapı açır. Bu, sülh müqaviləsi imzalanmasa da, Azərbaycanın etimad mühitini gücləndirmək yönündə qonşu ölkəyə etdiyi növbəti mühüm jestdir. Xatırladaq ki, az öncə Qazaxıstan taxılının Azərbaycan və Gürcüstan üzərindən Ermənistana daşınacağı məlum olmuşdu.

Bəs Rusiyadan daşınmalar konkret hansı marşrut üzrə həyata keçəcək? Bunun Ermənistan üçün əhəmiyyəti və Azərbaycanın götürəcəyi iqtisadi fayda nədən ibarətdir?

Ehtimal olunur ki, daşımalar əvvəlcə Rusiya-Dağıstan istiqamətindən Azərbaycana daxil olacaq, buradan isə dəmir yolu vasitəsilə Qazax-Tovuz-Gəncə xətti üzrə Gürcüstan və ya bilavasitə Ermənistan sərhədinə qədər aparılacaq. Bu marşrut həm məsafə, həm də xərclər baxımından daha sərfəlidir.

Qeyd olunur ki, əgər bu marşrut uğurla işə düşərsə, Ermənistan üçün həm iqtisadi tənəzzülün qarşısını almaq, həm də real əməkdaşlığa başlamaq fürsəti yaranacaq. Bunun isə sülh müqaviləsi perspektivlərinə də dolayısı ilə müsbət təsir göstərəcəyi gözlənilir.

İndi diqqətlər həm Rusiya Dəmir Yolları şirkətinə, həm də Azərbaycan və Ermənistanın nəqliyyat qurumlarının atacağı növbəti addımlara yönəlib. Görünən odur ki, regionda yeni bir iqtisadi reallıq formalaşır, bu reallıqda Bakı yenə də proseslərin mərkəzində dayanır.

**Sabiq maliyyə naziri, professor Fikrət Yusifov mövzu ilə bağlı “Yeni Müsavat”a danışıb. Professor qeyd edib ki, regionda etibarlı sülhün yaranması üçün addımlardan biri kommunikasiya düyünülərinin açılmasıdır:** “Azərbaycan bu istiqamətdə artıq ciddi addımlar atmağa başlayıb. Qazaxıstan taxılının Azərbaycan üzərindən Ermənistana daşınmasına icazə verilməsi Azərbaycan hökumətinin bu regionda sülh üçün hamıdan çox maraqlı olmasının göstəricisidir. Biz regionda sülhə, əmin-amanlığa köklənmiş bir ölkəyik. Çox təəssüflər olsun ki, Ermənistanda mövcud olan separatçı toplum bu gün də sülhü pozmaq üçün əlindən gələni etməkdədir. Lakin görünən budur ki, Paşinyan hakimiyyətinin ətrafında birləşən elektorat Ermənistanda böyük əksəriyyəti təşkil edir. Belə olmasaydı, Paşinyanın partiyasının 44 günlük müharibədəki ağır məğlubiyyətdən sonra yenidən seçkilərdə qalib gəlməsi mümkün olmazdı”.

**Fikrət Yusifovun fikrincə, yolların açılması ilk növbədə regionda siyasi sabitliyin bərpasına xidmət edəcək, eyni zamanda regionun iqtisadiyyatının inkişafında yeni bir mərhələ başlayacaqdır:** “Sağlam düşünən ermənilər indi bunun fərqindədilər. Onlar sanki indi ayılıb Ermənistana vaxtilə rəhbərlik etmiş köçəryanlardan, sərkisyanlardan soruşurlar ki, siz bu günü nədən görə bilmədiniz, öz hakimiyyətinizin ömrünü uzatmaq üçün on minlərlə ermənin ölümünə və yaşayış yerlərindən didərgin düşməsinə şərait yaratdınız?

Bu sülhün son nöqtəsi Qarabağ torpaqlarımızda hərbi cinayət törətmiş canilərin Azərbaycana təhvil verilməsindən sonra qoyulacaq. O günə də çox qalmayıb. Ermənistandakı başıpozuq separatçı cinayətkar dəstə bu gün Paşinyan hakimiyyətinə lazım deyil. Onların yeri Azərbaycan türmələrində ömürlük həbs cəzası altında olacaqları kameralardadır...

Yolların açılmasının iqtisadi səmərəsinə gəlincə, bir ölkənin ərazisindən daşınan bütün beynəlxalq yüklər üçün müəyyən olunmuş tariflər əsasında ödənişlər həyata keçirilir. Yük dövriyyəsinin artması isə həmin ölkənin dəmir yollarında qazancın çoxalmasına, və dövlətin büdcəsinin gəlirlərinin artmasına gətirib çıxarır”.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**

# Ermənistanda kilsə və lobbi parçalanır - kritik gözlənti

## Məhəmməd Əsədullazadə: “Hakimiyyət gec-tez kilsə üzərində tam qələbə çalacaq”



**Xəbər verildiyi kimi, ötən həftəsonu Moskva Ermənistan hökuməti ilə Ermənistan Apostol Kilsəsi arasında gərginlik fonunda ilk dəfə açıq şəkildə mövqe nümayiş etdirib. Rusiya Pravoslav Kilsəsinin nümayəndəsi, Moskva və Bütün Rusiyanın Patriarxı Kirillin müşaviri protoierey Nikolay Balaşov bildirib ki, Ermənistanın baş naziri Nikol Paşinyan kilsəyə qarşı hərəkətləri ilə konstitusiyanı pozur və dini quruma təzyiq edir.**

Onun sözlərinə görə, Ermənistan Konstitusiyası dini təşkilatların dövlət idarəçiliyindən ayrıldığını təsbit etdiyi üçün dünyəvi hakimiyyət nümayəndəsinin kilsənin daxili həyatına müdaxilə etmək hüququ yoxdur: “Kilsənin işləri yalnız onun kanonik qaydaları ilə tənzimlənir. İnsanda belə bir təəssürat yaranır ki, Ermənistan hökumətinin hazırkı liderləri milli mənəvi əsaslarla qeyri-bərabər mübarizə aparmağa qərar verib və bu məqsədlə kilsə iyerarxlarına və ümumilikdə onun ruhanilərinə qarşı təqiblərə və təhqirlərə əl atır, ruhaniləri həbs edir, kilsə binalarını müsadirə etməklə hədələyir”.

Ermənistanın hakim partiyasından xaric edilmiş deputat Ovik Ağazaryan isə hesab edir ki, Nikol Paşinyan erməni kilsəsini parçalaya bilər: “Biz də, kilsə rəhbərləri də bilirik ki, çatışmazlıqlar var. Baş nazir bunu beş il əvvəl bilirdi, bəs niyə o zaman heç bir tədbir görülmədi? Çünki o zaman buna ehtiyac yox idi, indi isə var. Fikrimcə, ən yaxşı halda Paşinyan kilsəni parçalamağa, diasporu yenidən bölməyə nail olacaq”.

Qeyd edək ki, hakimiyyət kilsə nümayəndələrinə qarşı kompromatları artıq ictimailəşdirməyə başlayıb.

Bəs o zaman kilsənin siyasətə qarışmaq ixtiyarı varmı? Rusiyanın kilsə və radikal müxalifət tərəfdə olmasını da nəzərə alsaq, Ağazaryan nə dərəcədə haqlı çıxacaq? Paşinyan kilsəni parçalayıb zəiflədə, sülhün yolunu tam təmizləyə biləcəkmi?

**Milli Cəbhə Partiyasının sədr müavini Məhəmməd Əsədullazadə** “Yeni Müsavat”a bildirdi ki, erməni Apostol Kilsəsi və xüsusilə II Qareginin, digər dini vəzifə daşıyan bir sıra erməni keşişlərin Rusiya xüsusi xidmət orqanları ilə bağlı olduğu məlumdur: “Ermənistanın əslində ən böyük problemlərindən və indiki ağır vəziyyətə gəlib çatmasının səbəblərindən biri kilsənin siyasətə qarışması, Ermənistanda hakimiyyətlərə ciddi təsir etməsidir. Rusiya kilsənin Ermənistan siyasətinə təsir imkanlarının daha da güclənməsi üçün daim addımlar atıb. Kilsə faktiki olaraq o həddə Ermənistan siyasi həyatına təsir göstərmək gücündə idi ki, hakimiyyətlərin taleyini belə həll edə bilirdi. Keşişlərin bir çoxu Rusiya xüsusi xidmət orqanlarının agentləridir. Paşinyan bu vəziyyəti hələ müxalifətdə olduğu illərdən bilirdi. Hakimiyyətə gəldikdən sonra problemin nə qədər ciddi olduğunu daha aydın görməyə başladı. Ona görə də artıq bir neçə ildir Paşinyan kilsənin siyasətdən uzaq tutulmasına nail olmaq üçün mübarizə aparır”.

**Onun fikrincə, kilsədə qanun pozuntularına yol verənlər məsuliyyətə cəlb edilir:** “Paşinyan bildirir ki, kilsədə normal, təmiz, kilsə qanunlarına riayət edən insanlar rəhbər olmalıdır və bu mübarizəyə şəxsən özü rəhbərlik edəcək. Bununla da kilsə ilə hökumət arasında gərginlik uzun müddətdir hökm sürür. Keşişlərə Rusiya ilə yanaşı Robert Köçəryan və Serj Sarkisyan da dəstək verir. Lakin bütün dəstəyə baxmayaraq onların Paşinyana qarşı keçirdiyi yürüşlərə və mitinqlərə 12-13 min nəfərdən yuxarı insan qatılmır. Bu da göstərir ki, Ermənistan cəmiyyətinin əksəriyyəti hakimiyyətin əleyhinə çıxmaq istəmir və dinin siyasətə müdaxiləsinin əleyhinədir”.

**Politoloq dedi ki, Ermənistanda keşişlər din xadimi kimi sülhün tərəfdarı olaraq çıxış etmək, sülhü, əmin-amanlığı təbliğ etmək əvəzinə müharibə tərəfdarı kimi çıxış edirlər, sülhə mane olurlar:** “Nikol Paşinyan isə onların bu yanlışını məhz onlara qarşı istifadə edir. Nəticədə xalq həmin qondarma din xadimlərindən tədricən üz döndərir. Artıq Qareginin və ya başqa hansısa keşişin bir çağırışı ilə xalq küçə və meydanlara axışmır. Ona görə də düşünürəm ki, artıq kilsə Paşinyana təsir etmək, xalqı ona qarşı qaldırıb onu devirmək imkanlarını itirib. Paşinyan gec-tez kilsə üzərində tam qələbə çalacaq və onu Ermənistanda siyasətdən tamam kənarlaşdıra biləcək. Bu isə sülh yolunda ən ciddi əngəllərdən birinin sıradan çıxması olacaq”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 195 (8805) 28 oktyabr 2025




## Bakı İrəvandakı tədbiri boykot etdi - AŞ PA-ya görə

**Azərbaycan Milli Məclisinin nümayəndə heyəti Avronest Parlament Assambleyasının oktyabrın 28-30-u İrəvanda keçiriləcək 12-ci plenar sessiyasında iştirak etməyəcək.**

Bunu APA-ya açıqlamasında Avronest PA-da Azərbaycan nümayəndə heyətinin rəhbəri Tahir Mirkişili bildirib.

Tahir Mirkişili deyib ki, Avronest PA-nın yarısını təşkil edən Avropa Parlamentinin qəbul etdiyi sənədlər, bəyanatlar Azərbaycanın dövlət suverenliyinə, ərazi bütövlüyünə qarşıdır: "Bu bəyanatlar həm də regionda Azərbaycan və Ermənistan arasında gedən sülh prosesini dəstəkləmir, əksinə, regionda düşmənçiliyin davam etməsində maraqlı olan qüvvələri dəyirmanına su tökür. Bu barədə Azərbaycan Milli Məclisi dəfələrlə etiraz bəyanatları verib. Bu ilin avqust ayında Vaşinqtonda Azərbaycan Prezidenti və Ermənistan baş naziri arasında keçirilən sülh görüşündən sonra bütün dünyanın alqışladığı bu hadisə ilə bağlı Avropa Parlamentinin qeyri-konstruktiv bəyanatı Azərbaycan nümayəndə heyətinin bu təşkilatla Avronest PA çərçivəsində əməkdaşlığın faydalılığı inamına bir daha ciddi zərbə vurub. Bu səbəblərdən, İrəvanda keçiriləcək plenar iclasda iştirak etməyəcəyik. Təşkilatın rəhbərliyinə də bu iradlarımızı bildirmişik. Qeyd edim ki, bu qərar tədbirin Ermənistanda keçirilməsi ilə bağlı deyil. Bu gün Azərbaycan və Ermənistan arasında sülh artıq təmin olunub, münasibətlərin normallaşdırılması istiqamətində əməli addımlar da atılır".

# Sərhəddəki "casus"lar hərəkətləndi - Bakının tələbi

## Avropa İttifaqının "mülki missiyası" 2027-dək kimi kimdən qoruyacaq?




**Azərbaycanla Ermənistan sülh mətnini parafladı, Minsk Qrupunun de-yure ləğvinə nail oldu. Artıq tərəflər arasında etimad mühiti yaranmaqdadır. Yekun sənədin imzalanması üçün isə yalnızca İrəvanın son şərti yerinə yetirməsi qalır.**

Buna baxmayaraq, Avropa İttifaqının (Aİ) şərti sərhəddə yerləşən mülki missiyası, əslində "casus şəbəkəsi" hələ də bölgəni tərk etmir. Amma Aİ-nin Ermənistandakı müşahidə missiyası X səhifəsində post dərc edərək, "gecə-gündüz Ermənistan-Azərbaycan sərhədi boyu müşahidə və patrul xidməti apardığını" yazıb. Sözügedən paylaşımın məhz indi - Azərbaycanın öz sülh gündəmini real addımlarla təsdiq etdiyi bir vaxtda meydana çıxması diqqət çəkir.

Onların gecə-gündüz sərhəd boyu müşahidə aparmasının isə bir əhəmiyyəti yoxdur. Bölgədə hərbi eskalasiya riskindən söhbət gedə bilməz, delimitasiya işləri üçün proses getməkdədir. O halda patrul xidməti belə bir missiyanı niyə həyata keçirir?

Yada salaq ki, Azərbaycan bu missiyanın regiondan çıxarılmasına çağırış edib. Ermənistanın baş naziri təklif edib ki, sərhədin delimitasiya olunmuş ərazilərində Aİ missiyası fəaliyyət göstərməsin. Lakin təşkilat Ermənistanda fəaliyyətinin 2027-ci ilədək uzadılmasına qərar verib.

Bəs 2027-dək "casuslar" kimi kimdən qoruyacaqlar, vaxtından əvvəl bölgədən çıxarılması mümkündümü?

**ƏHD Partiyasının baş katibi Niyaməddin Orduxanlı** dedi ki, Avropa İttifaqının Ermənistanda **şərti sərhəddə yerləşdirdiyi şəxslərin hamısı keçmiş və indiki hərbiçilərdir:** "Bunlara birbaşa agentura şəbəkəsi də demək olar. Bu casuslar nəyi müşahidə edir? Tərəflər arasında münasibətlər müsbətə doğru irəliləməkdədir. Keçən həftə Azərbaycan Prezidenti cənab İlham Əliyev Ermənistana Azərbaycan üzərindən yüklərin daşınmasına icazə verilməsi ilə bağlı qərarı ilə sülhə böyük töhfə verdi, Ermənistanda sülhün perspektivlərini şübhə altına alan revanşistlərə ciddi zərbə vurdu. Sülh istəyən baş nazir Paşinyanın mövqelərini seçkilər öncəsi xeyli gücləndirdi. Azərbaycan növbəti dəfə milli maraqlara xidmət edən müstəqil xarici siyasətini nümayiş etdirdi. Biz yükdaşımalardan həm də əlavə vəsait əldə edəcəyik. Hətta biz düşünür ki, bundan sonra qardaş Türkiyə də Ermənistanla kommunikasiya xətlərini açmalı, Ermənistanla diplomatik əlaqələr qurmalıdır. Bu, regionun təhlükəsizliyi və inkişafı üçün çox vacibdir. Artıq Azərbaycan münasibətlərində gərginlik olan bütün qonşuları ilə, o cümlədən Qərblə münasibətlərini tənzimləyir. Bu siyasət region xalqlarının daha sıx inteqrasiyasına, inkişafına və təhlükəsizliyinə böyük töhfə verəcək. Regionda yaşayan Azərbaycan türklərinin milli birliyinə, canlı təmasların qurulmasına yol açacaq. Qonşularla dostluq münasibətləri təhlükəsizliyə olan təhdidləri aradan qaldıracaq, hökumətin bu istiqamətdə narahatlıqlarına son qoyacaq, quru sərhədlərinin açılmasını sürətləndirəcək. Belə bir vəziyyətdə casus şəbəkəsinin qalması və ya xidmət müddətinin 2027-ci ilə qədər davam etməsi birbaşa sülhə mane olmaq deməkdir. Azərbaycan buna etiraz edir".

**Polkovnik Rövşən Məhərrəmov qeyd etdi ki, son proseslərdən Azərbaycan tərəfi daha çox qazandı:** "Siz də qeyd etdiyiniz kimi, həm sülh sazişi parafландı, həm də Minsk Qrupu buraxıldı. Bir sözlə, Azərbaycan tərəfinin tələbləri yerinə yetirildi. Növbəti tələbimiz bilirsiniz ki, Ermənistan Konstitusiyasında dəyişikliyin edilməsi ilə bağlıdır. Bu məsələdə Bakı vazkeçilməz mövqeyə malikdir. Hər kəsə bəllidir ki, Paşinyan 2027-ci ildə bu dəyişiklik olacağı barədə açıqlama verib. Hesab edirəm ki, bu baş tutacaq. Çünki son illərdə gedən proseslər bunu göstərir. Bütün bunlar isə getdikcə Cənubi Qafqazda əmin-amanlığın nail olunması deməkdir. Bir sözlə, bu regionda gərginlik durmadan götürülür. Azərbaycanın böyüklüyü idi ki, digər dövlətlərin iştirakı olmadan danışıqların aparılması təklifini etdi. Eyni zamanda paraflanma sənədinin əldə olunmasından sonra Zəngəzur dəhlizinin "Tramp yolu" adlandırılması barədə razılaşma oldu. Sülh müqaviləsinin imzalanması üçün hazırda yeganə əngəl Ermənistan Konstitusiyasıdır, bu dəyişikliklər ediləndən sonra Ermənistanın ölkəmizə qarşı heç bir ərazi iddiası qalmayacaq. Bilirsiniz ki, Qazax istiqamətində delimitasiya və demarkasiya prosesi aparılır".

**Polkovnik onu da əminliklə diqqətə çatdırdı ki, Avropa İttifaqının regiondakı mülki missiyası birbaşa "casus şəbəkəsi" rolunu oynayır:** "Avropa Birliyinin qüvvələrini regiona yerləşdirməsi Ermənistandan daha çox onların uğurudur. Azərbaycanla Ermənistan arasında delimitasiya və demarkasiya prosesi başa çatdıqdan sonra patrul xidmətinin aparılmasına heç bir ehtiyac da qalmayacaq. Paşinyanın onların 2027-ci ilədək orada qalacağı barədə dedikləri heç şübhəsiz ki, hakimiyyətini qorumağa yönəlib. Erməni baş nazir hər zaman Avropadan dəstək gözləyib. Bu casus şəbəkəsi də deyərdim ki, işini yaxşı görür. Buna görə əsas olan Avropa İttifaqının regiona yerləşməsi idi, ona da nail oldular. Buna etiraz bildirilib. Missiya heç bir halda Azərbaycana lazım da deyil. Ermənistan isə 2027-ci ilə qədər bu mülki missiyanın qalmasını istəyir, çünki azından referenduma qədər buna nail olmaq niyyətindədir. Amma ola bilər ki, həmin missiya vaxtından əvvəl fəaliyyətini dayandırsın. Onu da qeyd edim ki, bu gün Ermənistanda bir az gərginlik yaşanır. Bilirsiniz ki, Gümrü merini həbs etdilər. Paşinyan özünə alternativ olan bütün şəxslərə qarşı sərt addımlar atır. Onları həbs edir, sıradan çıxarmaq üçün yollar arayır. Amma açığı inanmıram ki, Avropa İttifaqının bu missiyası 2027-ci ildən tez sərhədi tərk etsin. O məsələyə indiki vaxtda baxılacağını zənn etmirəm. Sonda onu da bildirim ki, erməni cəmiyyəti ən nəhayətdə sülhün bütün region üçün əhəmiyyətini tam şəkildə anlamalıdır".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

## Qonşu ölkə yenə qarışdı



**Tiflisin mərkəzində Gürcüstanın 5-ci prezidenti Salome Zurabişvilinin iştirakı ilə kütləvi etiraz aksiyası keçirilib.**

Musavat.com ArbatMedia saytına istinadla xəbər verir ki, iştirakçılar yeni parlament seçkiləri və saxlanılan fəalların azad edilməsini tələb ediblər.

Yürüş nəticələri müxalifət partiyaları və vətəndaş cəmiyyətinin bir hissəsi tərəfindən tanınmayan parlament seçkilərinin ildönümündə baş tutub. "Sona qədər, qələbəyə qədər!" şüarı altında hərəkət edən aksiya iştirakçıları respublika meydanından parlament binasına doğru irəliləyiblər.

333 gündür ki, ardıcıl olaraq parlamentin yaxınlığında yeni seçkilər və saxlanılan nümayişçilərin azad edilməsi tələbi ilə etiraz aksiyaları keçirilir.

Salome Zurabişvili izdihama müraciət edərək, hazırkı parlamentin və onun varisi Mixeil Kavelaşvilinin legitimliyini tanımadığını bildirib. O, Rusiya modelinə əsaslanan seçkilər keçirməklə qanunsuzluğunu təsdiqləyən bu rejimə heç nəyin kömək etməyəcəyini bildirib və əlavə edib ki, "rejimin günləri sayılıdır" və onlar "bir az daha səbirli olmalıdırlar".

Etirazlar ötən ilin noyabr ayında hakimiyyətin Gürcüstanın Avropa Birliyi ilə üzvlük danışıqlarını 2028-ci ilin sonuna qədər təxirə salmaq qərarından sonra başlayıb. O vaxtdan bəri parlament etirazçılar, media və ictimai təşkilatlar üçün qaydaları sərtləşdirən bir neçə qanun qəbul edib.

YENİ MÜSAVAT
N 195 (8805) 28 oktyabr 2025



# Dibçəyə cadu əkilməsi elmi

Zamin HACI
zaminhaci@gmail.com

**Türkiyənin Trabzon şəhər sakinləri İsrail baş naziri Binyamin Netanyahunun samanla doldurma heykəlini qayırıb, üzərindən də "Edam" şüarıyla küçədən asmışdılar. 3-4 gün qabaq bunu görəndə xatirələrin qucağına biletsiz tullanaraq keçmişə yollandım.**

1990-cı ildə sovetlərin müdiri Mişa Qorbaçov Bakıya qoşun yeridib bizim milləti qırandan sonra doğulduğum Füzuli rayonunda da kəndçilərimiz oxşar metodla mübarizəyə qalxmışdı. Onların əlinə haradansa yazıq bir tülkü keçmişdi, tülkünü öldürüb boğazından "Qorbaçov" yazılmış karton lövhə ilə birgə şossenin kənarındakı telefon dirəyindən asmışdılar. Tülkü uzun müddət o dirəkdə qaldı. Yalan olmasın, ermənilər gəlib kəndi yandırana qədər.

Yadımdan çıxmamış, bizim kənddə maraqlı əhvalatlar çox olurdu, elə həmin SSRİ ilə bağlı, söz vaxtına çəkər, oktyabr ayına aid birini yazım. Anekdot kimi mövzudur. Sovet vaxtı bizim kəndin sovxozu (yəni sovet təsərrüfatı; bu, kolxoza nisbətən guya daha müstəqil və mütərəqqi təsərrüfat subyekti forması idi, camaata heç olmasa maaş verirdilər) bolşevizmin fikir babalarından alman Fridrix Engelsin adını daşıyırdı. 1991-ci ilin oktyabrında müstəqillik haqqında qanun-filan qəbul ediləndə sovxozun adını dəyişib... "18 oktyabr adına sovxoz" qoymuşdular. Necə deyərlər, tam bir oksümoron, anaxronizm. Ömərov soyadlı ailədə uşağın adını Əli qoymaq kimi. Səhrada ağ ayı, Azərbaycanda futbol, Ramiz Mehdiyevdə vicdan və sairə kimi... Ola bilsin həmyerlilərim həm Sovet hökuməti, həm yeni müstəqillik və Meydan hərəkatımızla eyni toponim ətrafında məzələnmək qərarına gəlmişdilər.

Bəs o vaxtkı tülkülü aksiyanın nəticəsi oldumu? Əlbəttə. Bir-iki il keçdi, SSRİ dağıldı. Belə qədimi mübarizə üsulları həmişə fayda verir. Yanılmıramsa, Qobustan qayalarında bu proseslərin rəsmləri də vardır: yerdə, qayada ovuna çıxılacaq canlının, heyvanın cizgiləri çəkilir, qəbilə üzvləri həmin cizgi daxilinə ox, nizə, daş atırlar, bu minvalla ovun ruhunu zədələdiklərini düşünürlər.

İndi Trabzonda Netanyahunun müqəvvasını asmışansa, deməli, İsrailin axırı çatmışdır. Yazıq yəhudi xalqı. Yenə dünya üzünə dərbədər düşəcəklər.

Vay-fayın içərisinə qoyulan cadunun videosunu mütləqa görmüsünüz. İndiki dövrdə insanların mübarizə üsulları da təkmilləşir. TikTokda arvad boşatdırma duaları, Yutuba qurd yağı sürtülməsi, Vatsap profilini bağlatdırmaq kimi cadu üsulları geniş yayılıbdır.

Mövzu açılmışkən, bu yaxında bir dəyərli dostumuz Azərbaycan Milli Elmlər Akademiyasındakı qeyri-adi elmi proseslər haqqında mənə məlumat verdi, heyran qaldım. Deyir, orada əvvəllər hər institutun otaqlarında pəncərələri gül dibçəkləri bəzəyirmiş. Amma sonra məlum olub ki, bir-birinə pislik istəyən alimlərimiz o dibçəklərdə cadu-piti basdırırlar. Hətta hansısa işçi başqa şöbəyə köçürüləndə, yaxud işdən çıxanda əgər dibçəyini özü ilə aparmasa otaq yoldaşları şübhələnir, elmi araşdırma aparır və gülün dibini qazaraq həmin təhlükəli duanı aşkara edərək götürürmüşlər. Ona görə bədbəxtlikdən sığortalanmaq üçün AMEA rəhbərliyi qərar çıxarıb, bundan sonra heç bir otaqda dibçək olmamalıdır.

Güman edirik bu mütərəqqi üsuldan orta məktəblər, xəstəxanalar və digər əlaqədar dövlət qurumlarımız yararlanmağa borcludur. Şəxsən mən məktəbin pəncərəsində dibçək görəndən uşağa demişəm, a bala, ta ora getməginən, salamatı repetitordur. Gərək sayın Emin müəllim də bu barədə düşünsün. Yoxsa dibçəklər qaldıqca onun guya işdən çıxarılacağı haqda lüzumsuz şaiyələr artır, təhsilimizə sağalmaz yaralar vurur.

*P.S. Füzulidən olan başqa bir dostum təzəlikcə öz kəndlərinin xarabalığına baş çəkmişdi. Deyir orada tülkülər dolu idi.*



# NATO səfirləri Azərbaycanda - tək hədəf

## Alyansla əməkdaşlığımız hara qədər genişlənə bilər? - Kremlin narahatlığı

**NATO-da akkreditə olunmuş 15 xarici ölkənin səfirlərindən ibarət heyət Azərbaycana səfər edəcək. Heyət Azərbaycanda noyabrın 6-7-də səfərdə olacaq.**

Xatırladaq ki, sentyabrın əvvəlində NATO-da akkreditə olunmuş xarici ölkələrin səfirləri Ermənistanda oldular. Həmin səfər çərçivəsində onlar Ermənistan prezidenti, baş naziri və müdafiə naziri kimi rəsmilərlə görüşərək Ermənistan-NATO tərəfdaşlığı, regional təhlükəsizlik və demokratik dayanıqlılıq məsələlərini müzakirə ediblər.

Bu ilin iyulunda Müdafiə Nazirliyinin nümayəndələri ilə NATO-nun ekspert heyəti arasında işçi görüşü keçirilib. Görüşdə Azərbaycan və NATO arasında əməkdaşlığın cari vəziyyəti və inkişaf perspektivlərinə dair fikir mübadiləsi aparılıb. Son aylar Rusiya mediasında Azərbaycan-NATO münasibətlərinin inkişafına xüsusi diqqət hiss olunmaqdadır. Xüsusilə Kremlə yaxın media Cənubi Qafqazdakı prosesləri Qərbin təsirləri prizmasından təhlil edir.

Bu ilin iyununda isə Rusiya Xarici İşlər Nazirliyinin rəsmi təmsilçisi Mariya Zaxarova Azərbaycan və Ermənistanın NATO ilə münasibətlərindən Kremlin narahatlığını ifadə edib. Onun sözlərinə görə, Kreml Azərbaycan və Ermənistanın NATO ilə əməkdaşlığın dərinləşdirilməsi ilə bağlı riskləri tam şəkildə nəzərə aldıqlarına ümid edir. XİN rəsmisi hesab edir ki, NATO Cənubi Qafqazın təhlükəsizliyinə təhlükə törədir. Onun fikrincə, Qərbin əsas məqsədi regionda sabitliyi pozmaq və yeni gərginlik ocaqları yaratmaqdır.

Azərbaycan-NATO əməkdaşlığı hara qədər genişlənə bilər? Qarşıdakı səfərin əhəmiyyəti nədir?

**Siyasi təhlilçi Sona Əliyeva** "Yeni Müsavat"a açıqlamasında Bakı və İrəvanın heç bir halda Kiyevin yolunu getməyəcəyini qeyd etdi: "Azərbaycan və Ermənistanın NATO-ya üzvlük məsələsi gündəmdə deyil. Ən azından, alyans rəsmiləri buna eyham vuracaq bəyanatlar səsləndirməyiblər. Ermənistan KTMT-də təmsil olunur. İrəvan hələ ki bu qurumdan rəsmi şəkildə uzaqlaşmayıb. Azərbaycan isə Qoşulmama Hərəkatının üzvüdür. Hətta müəyyən dövrdə ona rəhbərlik də edib. Bakının NATO ilə bağlı mövqeyi də ortadadır. Sadəcə olaraq, strateji əməkdaşlıqdan söhbət gedə bilər. Əlaqələrin daha da dərinləşməsi ancaq NATO üzvü Türkiyə vasitəsilə mümkündür. Digər tərəfdən, nə Bakı, nə də İrəvan Kiyevin düşdüyü vəziyyətlə üzləşmək istəmir. Azərbaycan və Ermənistan Rusiyanın Cənubi Qafqazdaki hegemonluğunun fərqindədir. Kremli Güney Qafqazdan tam şəkildə neytrallaşdırmadan bu iki ölkə NATO-ya üzv olmayacaq. Biz NATO-nun Sülh naminə Tərəfdaşlıq Proqramına qoşulmuşuq. Əlaqələrimiz ancaq bu müstəvidə inkişaf edə bilər".

**Hərbi ekspert Səxavət Məmmədlinin fikrincə, Azərbaycanın NATO ilə əməkdaşlığı digər Cənubi Qafqaz ölkələri ilə müqayisədə çox rahatdır:** "Cənubi Qafqaz həm Rusiya, həm də NATO üçün çox əhəmiyyətlidir. Ona görə də hər iki tərəf Cənubi Qafqazda baş verən prosesləri diqqətlə izləyir. Müəyyən mənada müdaxilə etməyə də çalışırlar. Cənubi Qafqaz ölkələrinin birbaşa NATO ilə yüksək səviyyədə əməkdaşlıq etməsi onlar üçün müəyyən problemlər yarada bilər. Ona görə də istər Azərbaycan, istər Gürcüstan, istərsə də Ermənistan ehtiyatlı davranırlar. Çünki NATO ilə birbaşa yaxınlıq Rusiyanın birbaşa maraqlarına ziddir. Ancaq İranı da unutmaq olmaz. Azərbaycanın NATO ilə əməkdaşlıq etməsi Gürcüstan və Ermənistandan bir qədər daha rahatdır. Çünki Azərbaycan Türkiyə ilə strateji müttəfiqdir. Azərbaycan Ordusu Türkiyə ordu modelinə keçid etdi. Türkiyə də müəyyən sahələrdə, xüsusilə hava hücumundan müdafiə sahəsində Azərbaycanın təcrübəsindən yararlanır. Bakının birbaşa NATO ilə sıx əməkdaşlıq etməsi Rusiyada qıcıq yarada bilər, ancaq Azərbaycanın Türkiyə ilə münasibətləri Rusiyanı narahat etmir. Azərbaycan məhz Türkiyə xətti ilə NATO ilə müsbət münasibətlər içərisindədir. NATO-da akkreditə olunmuş 15 xarici ölkənin səfirlərin Azərbaycana səfərləri NATO-nun təkcə ölkəmizə olan marağından yox, həm də Cənubi Qafqaza olan marağından irəli gəlir".

**Onun sözlərinə görə, təsadüfi deyil ki, onlar daha öncə Ermənistanda səfərdə oldular:** "Hazırda Cənubi Qafqazda bir balans formalaşıb. Rusiya və ABŞ Cənubi Qafqazda uzlaşma əldə ediblər. Ona görə də regionda sabitliyin olduğunu müşahidə edə bilirik. NATO hazırda vahid bir təşkilat kimi də fəaliyyət göstərə bilmir. Müəyyən mənada ABŞ ilə Avropa İttifaqı ölkələri arasında anlaşmazlıqlar olur. Bunu Rusiya-Ukrayna müharibəsində dəfələrlə müşahidə etmişik. ABŞ başqa xətt tutmaq istəyir, NATO-nun Avropa üzvləri isə ABŞ-ni onların xəttinə gətirmək istəyir. NATO-nun Şərqə doğru genişlənmə planlarının uğurlu olub-olmaması mübahisəlidir. Qərbdə bəzi dairələr bunun yalnız olduğunu deyir. Hətta ABŞ də bu fikirdədir. Ancaq Avropa dövlətləri sanki bu planı davam etdirmək niyyətindədir. Avropa dövlətlərinin bu qərarı Cənubi Qafqazda əldə olunmuş ABŞ-Rusiya uzlaşmasını poza bilər. Ona görə də Cənubi Qafqaz ölkələri bu məsələdə maksimum ehtiyatlı olacaqlar. Misal üçün, Tiflisin meri Kaxa Kaladze açıq şəkildə bildirdi ki, Rusiya Ukraynaya təcavüzə başlayanda Avropa ölkələrindən biri onlara təklif edib ki, onlar da müharibəyə başlasınlar. Ona görə də Cənubi Qafqaz ölkələri, xüsusilə Azərbaycan bu tip əməkdaşlıqda balansı qorumağa çalışacaq".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"



# Daha 226 mina aşkarlandı

**İşğaldan azad edilmiş ərazilərdə minatəmizləmə fəaliyyətinə cəlb olunmuş qurumlar tərəfindən icra olunan əməliyyatlar barədə həftəlik (20.10.2025-26.10.2025) məlumat açıqlanıb.**

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyindən (ANAMA) verilən məlumata görə, Tərtər, Ağdam, Ağdərə, Laçın, Füzuli, Şuşa, Xocalı, Xankəndi, Kəlbəcər, Xocavənd, Cəbrayıl, Qubadlı və Zəngilanda, eyni zamanda Qazax rayonunun işğaldan azad edilmiş Bağanıs Ayrım, Aşağı Əskipara, Xeyrımlı, Qızılhacılı kəndlərində 143 piyada əleyhinə mina, 83 tank əleyhinə mina, 5498 Partlamamış Hərbi Sursat (PHS) aşkarlanıb.

Bildirilib ki, 1644,6 hektar ərazi mina və PHS-lərdən təmizlənib.

# Moskvadan Ağ Evdəki anlaşmaya "genosid" hədəsi

## Rusiya XİN rəsmisi Paşinyanı niyə xəyanətkar adlandırdı - şok səbəb; Kreml böyük normallaşma prosesinə qarşı

**Rusiya postsovet ölkələrinə qarşı köhnə imperiya siyasətindən hələ də əl çəkməyib. XİN rəsmisi Mariya Zaxarovanın ötən həftəsonu verdiyi təxribatçı açıqlama bu qənaəti bir daha təsdiqlədi.**



XİN sözçüsü baş nazir Nikol Paşinyan və digər erməni rəsmilərinin uydurma "erməni soyqırımı"nı xarici siyasətin prioritet mövzuları sırasından çıxarmasından güclü sarsıntı keçirdiyini söyləyib, baş naziri və komandasını "xəyanətkar" adlandırıb.

**Sitat:** "Tarixdə elə dövrlər olur ki, xalqlar və ölkələr çətinliklərin öhdəsindən gələ bilmədikləri üçün yox olurlar. Çünki onlar müqəddəs saydıqları şeylərə xəyanət edirlər. Baxın, bir çox erməni liderinin və dövlət xadimlərinin təfsirində "erməni soyqırımı" (dırnaqlar bizimdir - red.) ilə bağlı tarixə əsaslanan, toxunulmaz görünən məsələnin qəfildən siyasi amilə çevrilməsi, onların təbirincə, kənara atıla biləcək amilə çevrilməsi məni, sadəcə, sarsıtdı".

Şübhə yox ki, belə bir açıqlama heç də ermənidən çox erməni olmaq istəyindən qaynaqlanmır. Ermənilər zaman-zaman Rusiyaya, sadəcə, qonşu xalqlara və dövlətlərə, özəlliklə Azərbaycan və Türkiyəyə qarşı təzyiq aləti kimi istifadə ediliblər. Bundan ötrü də Türk xofu, Türkə nifrət daim "zəruri şiddətdə" saxlanmalıdır.

Həqiqət həmçinin ondan ibarətdir ki, əsrin bu böyük yalanına ilk dəfə "legitimlik" donunu məhz Rusiya - SSRİ biçib. Aylar öncə baş nazir Nikol Paşinyan bu barədə etiraf da etmişdi. Demişdi ki, erməni xalqı "soyqırımı" mövzusu üzərində bir daha düşünməlidir, çünki bu, xarici güclərin maraqları naminə faktiki ona "sırınmış" bir məsələdir. Yəni necə oldu ki, əsrin əvvəllərində (1915) yaşanmış hadisələr 35 il "soyqırımı" hesab olunmadı və qəflətən, 1950-ci illərdə ortaya "genosid" mövzusu çıxdı?

Tarixçilərin izahı isə beledir: II Dünya müharibəsindən sonra Stalin Türkiyədən onun şərq rayonlarını tələb edib. Ermənilər bu əraziləri hələ də "Qərbi Ermənistan" hesab edir və bu axmaq iddia indiki konstitusiyada da əksini tapıb. Türkiyənin rədd cavabından sonra isə ortaya "erməni soyqırımı" kartı atılıb. Necə ki, qardaş dövlətin ərazi bütövlüyünü uzun illər təhdid eləmiş terrorçu PKK-nı da SSRİ yaratmışdı.

Bu da sirr deyil ki, "soyqırımı" yalanı, Türkə nifrət Kremlin Ermənistanda öz hərbi-siyasi mövcudluğuna davam etməsi üçün əsas ideoloji narrativlərindəndir. Beləcə, şimal qonşumuzun həm də sülhlə bağlı qeyri-səmimiliyi yenə üzə çıxır. Moskva bir yandan guya bölgədə sülh və əməkdaşlığın, sərhədlərin və kommunikasiyaların açılmasının tərəfdarı olduğunu bəyan edir, Türkiyənin də daxil olduğu 3+3 formatının üstünlüyündən danışır, digər yandan da Türkə nifrəti gündəmdə saxlayıb qızışdırmaqla, ermənilərin "yaralı" yerindən basmaqla qonşu xalqlar arasında düşmənçiliyi bitməsinə imkan vermir. Nəhayət, Rusiya bu yolla həm də seçkilər ərəfəsində hakim partiyanın ictimai nüfuzuna zərbə vurmaq, rusiyayönlü qüvvələrin "arqumentlərini" isə gücləndirmək niyyəti güdür. Demək ki, Moskva Bakı ilə İrəvan arasında sülhü müqaviləsinin imzalanmasına da maksimum əngəl olacaq.

Musavat.com-a görə, Mariyanın timsalında Moskvanın bu qədər sərt reaksiya göstərməsinin əsas səbəbi Ermənistanın "soyqırımı" iddialarından imtinasının İrəvanın Türkiyə və Azərbaycanla münasibətlərində normallaşma prosesinə doğru addım kimi dəyərləndirilməsidir. Rusiya uzun illər boyu bu iddialardan regionda ideoloji, siyasi və geosiyasi təsir vasitəsi kimi istifadə edib. Xüsusilə "soyqırımı" narrativi Ermənistan cəmiyyətində Türkiyəyə və Azərbaycanla normallaşmaya qarşı müqavimətin əsas ideoloji dayaqları kimi qorunub saxlanılıb.

Paşinyan isə bir neçə dəfə bəyan edib ki, Ermənistanın "vətənpərvərlik modeli" uzun illər boyu erməni kilsəsi və Kremlin təbliğatı tərəfindən formalaşdırılıb və bu, ölkəni daimi qarşıdurma vəziyyətində saxlayan süni konstruksiyadır. Onun fikrincə, bu model Ermənistanı həm Azərbaycana qarşı ərazi iddialarına sürükləyib, həm də Türkiyə ilə münasibətlərin dondurulmasına səbəb olub. Yeni geosiyasi vəziyyətdə isə Ermənistanın bu xətti davam etdirməsi dövlətçilik üçün ciddi risk yaradır.

Ekspertlərin qənaətinə görə, Moskvanın və erməni kilsəsinin Paşinyana qarşı sərtləşən mövqeyi təsadüfi deyil. "Soyqırımı" iddiasının xarici siyasət prioritetləri sırasında olmaması Rusiyanın bölgədə Ermənistan üzərində qurduğu ideoloji təsir mexanizmlərini zəiflədir. Buna görə də Rusiya ictimai rəyin Paşinyana qarşı çevrilməsi üçün təzyiqi artırmağa çalışır.

Beləliklə, Ermənistan hökumətinin "soyqırımı" mövzusunda atdığı addım yalnız tarixi narrativlə bağlı dəyişiklik deyil, həm də ölkənin gələcək geosiyasi xəttinin müəyyənləşməsi baxımından kritik dönüş nöqtəsi kimi qiymətləndirilir.

Kreml bu qəbil yalan-palanlarla erməni cəmiyyətinin "saqqızını" oğurlaya biləcəkmi? Rusiyanın "genosid" dəmarşı böyük sülhə nə dərəcədə əngəl yarada bilər? Moskva bununla nə demək istəyir?

**Professor Qabil Hüseynli** hesab edir ki, Rusiya Azərbaycanla Ermənistan arasında bütün problemlərin köklü həllinə həmişə qarşı olub. Onun fikrincə, imperiya maraqları səbəbindən şimal qonşumuz istəyib ki, tərəflər arasında yarımçıq qalan məsələlər olsun. Q. Hüseynlinin sözlərinə görə, saxta soyqırımı mövzusunu gündəmə gətirməklə erməni cəmiyyətini qızışdırırlar: "Çünki Ermənistan həm Türkiyə ilə normallaşma prosesi keçir, həm Azərbaycanla barışıq əldə etməkdədir. Bu yaxınlaşmaya zərər vurmaq üçün uydurma genosid mövzusu dövriyyəyə buraxılıb. Zaxarovanın ağzı ilə danışan Kreml sarayı öz niyyətini açıb-ağardır. Yəni Rusiya normallaşma prosesinə qarşıdır".

**Q.Hüseynli xatırladıb ki, Moskva Qarabağ probleminin də fundamental həllinin əleyhinə olub:** "Putin Valday klubunda ermənilərə açıq şəkildə müraciət etdi. Dedi ki, Vaşinqton variantı var və bütün Qarabağın Azərbaycana verilməsini nəzərdə tutur. Əgər erməni xalqı bunu qəbul edirsə, Rusiya hörmətlə yanaşacaq. Bu çıxış ermənileri ayağa qaldırmağa hesablanmış çıxış idi. Bununla demək istəyirdi ki, Qarabağı sizin lideriniz Paşinyan verir, Rusiya buna razı deyil. Yəni etirazlar olarsa, dəstək verə bilərik. Bu bəyanatdan sonra o zaman Xankəndidə Vardanyanın da iştirakı ilə mitinq keçirilmişdi. Ancaq Kreml hədəfinə çatmadı. Bunu yada salmaqda məqsədim odur ki, Rusiya həmişə Azərbaycanla Ermənistanın problemlərinin birdəfəlik həllinə qarşı olub. Bu gün saxta genosid söhbəti də o niyyəti güdür".

**Vətəndaş Həmrəyliyi Partiyasının sədr müavini Samir Əsədli** Zaxarovanın Paşinyanı xəyanətdə ittiham etməsini Rusiyanın hiyləgərliyi adlandırır. Onun bildirdiyinə görə, Moskva erməniləri küçələrə çıxarmaq istəyir, lakin buna gücü çatmayacaq: "Paşinyan demək istəyir ki, bizi nağıllarla böyüdüblər. Və bu hadisələri soyqırımı adlandırmaqla qonşularla normal münasibətlər qura bilməmişik. Paşinyan deyir ki, gəlin arxivi açaq, görək nə qədər erməni ölüb. Yəni erməni baş nazir indiki rəqəmlərə şübhə ilə yanaşır. Paşinyan da deyir ki, biz Türkiyə və Azərbaycan olmadan normal dövlət qura, inkişaf edə bilmərik. Ona görə Kreml qəzəblidir ki, Paşinyan onun əlindən bütün rıçaqları almaqdadır".

**S.Əsədliyə görə, Rusiya Ermənistanda çevrilişə nail ola bilməyəcək, Ukraynada itkiləri onu getdikcə zəiflədir və yorur, bu səbəbdən Cənubi Qafqaza təsirləri azalır:** "Eyni zamanda sülh prosesinə də əngəl olmağa imkanı yoxdur. Bakı və İrəvan yekun sülh müqaviləsini də imzalayacaq. Erməni cəmiyyəti gələn il növbəti dəfə seçkilərdə seçim edəcək - Paşinyanın, yoxsa Rusiyanın dalınca getsin..."

**Emil SALAMOĞLU, "Yeni Müsavat"**



## Türkiyədən Zəngəzur açıqlaması: başladıq!

**"Zəngəzur dəhlizi Orta dəhlizin potensialının artırılmasında əsas amil olacaq". Teleqraf xəbər verir ki, bu barədə Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu bildirib.**

Uraloğlunun sözlərinə görə, Bakı-Tiflis-Qars (BTQ) dəmir yolunun potensialından tam istifadə olunması tədbirləri ilə yanaşı, Azərbaycanın qərb rayonlarını Naxçıvan Muxtar Respublikası ilə birləşdirəcək yeni marşrutun açılması istiqamətində də zəruri addımlar atılır.

Türkiyənin nəqliyyat naziri qeyd edib ki, Qarsdan Naxçıvan sərhədinə qədər uzunluğu 224 kilometr olan yeni dəmir yolunun tikintisinə artıq başlanılıb.

"BTQ xəttindən fərqli olaraq, yeni Qars-Dilucu dəmir yolu ikixətli olacaq və bu da yükdaşıma həcmini əhəmiyyətli dərəcədə artıracaq", - Uraloğlu əlavə edib.



## Paşinyan: "Münaqişə yenidən başlaya bilər"

**"2026-cı il sülh üçün həlledici əhəmiyyət daşıyacaq, çünki iyun ayında növbəti parlament seçkiləri keçiriləcək. Bu seçkilərin əsas məsələsi bir sualın cavabını tapmaq olacaq". Bunu Ermənistanın baş naziri Nikol Paşinyan bildirib.**

Onun sözlərinə görə, Ermənistan xalqı öz seçimi ilə sülhün sahibi olmalıdır, bu da qarşıdakı seçkilərin əsas siyasi məzmunu və məqsədidir.

"Qeyd etməliyəm ki, məsələ bu şəkildə qoyulub - həm hökumətin baxış bucağından, həm də tarixi və bütün digər mümkün aspektlərdən. Əks hal Ermənistanın yenidən münaqişəyə geri qayıtması demək olacaq", - Paşinyan vurğulayıb.

# İrəvandan yol təklifi: Zəngəzuru unutdurmaq cəhdi, yoxsa...

## Azərbaycanın tranzit yollarını açmasından sonra Ermənistandan səslənən bəyanatda hiylə elementləri görünür - Bakıdan reaksiya

**Ermənistan Azərbaycana yüklərin tranzitinə qoyulan məhdudiyyətləri aradan qaldırır. Bunu Ermənistanın baş naziri Nikol Paşinyan parlamentin maliyyə, kredit və büdcə məsələləri komitəsində 2026-cı il dövlət büdcəsi layihəsinin müzakirəsi zamanı deyib.**

O qeyd edib ki, bu qərar Azərbaycan Prezidenti İlham Əliyevin Ermənistana qarşı analoji məhdudiyyətlərin aradan qaldırılması ilə bağlı bəyanatına cavab olaraq qəbul edilir.

Xatırladaq ki, Prezident İlham Əliyev Astanada Qazaxıstan Prezidenti Kasım-Jomart Tokayevlə mətbuata bəyanatı zamanı Azərbaycanın Ermənistana yük tranziti ilə bağlı işğaldan bəri mövcud olan bütün məhdudiyyətləri aradan qaldırdığını açıqlayıb. Paşinyan Prezident İlham Əliyevə Azərbaycanın Ermənistana yüklərin tranzitinə dair bütün məhdudiyyətləri aradan qaldırmasına görə təşəkkür edib.

N.Paşinyanın sözlərinə görə, İrəvan da hazırda tranzit daşımalarının həyata keçirilməsinə tam hazırdır və Ermənistan Marqara-Yexeqnadzor-Sisian-Gorus istiqaməti üzrə yük avtomobillərinin hərəkətinə şərait yaratmağa qadirdir. “Hazırda bu, Ermənistan tərəfinin reallaşdıra biləcəyi yeganə marşrutdur,” - deyə Paşinyan vurğulayıb.

Qeyd edək ki, Azərbaycan ötən günlərdə öz ərazisindən Ermənistana yük daşımalarına tətbiq edilən tranzit qadağasını aradan qaldırıb. Bu qərardan sonra Rusiya və Qazaxıstandan Ermənistana göndərilən yüklər artıq Azərbaycan ərazisindən tranzit qaydasında daşınmağa başlanıb.

Ermənistan hökumətinin başçısı həmçinin qeyd edib ki, 2026-cı il büdcə layihəsi ilk dəfədir ki, “dinc şəraitdə” qəbul edilir və son bir il səkkiz ay ərzində sərhəddə atışmalarda bir nəfər də olsun hərbçi həlak olmayıb. Beləliklə, o hesab edir ki, avqustun 8-də Vaşinqtonda Ermənistan, ABŞ və Azərbaycan liderlərinin imzaladığı sazişlər öz nəticəsini verir.

Təbii ki, yüklərin tranziti məhdudiyyətlərinin aradan qaldırılması Azərbaycanın Ermənistanla sərhədləri açması demək deyil. Söhbət yükün Azərbaycandan Ermənistana birbaşa deyil, Gürcüstandan keçməklə daxil olmasından gedir. Yeni Bakı Qazaxıstan taxılının Azərbaycan ərazisindən istifadə olunmaqla Ermənistana daşınmasına icazə verib. Yüklər isə Ermənistana birbaşa Azərbaycandan yox, Gürcüstan ərazisindən daxil olacaq. Artıq Ermənistanın yükdaşımalara başladığı xəbərləri də var. Eyni zamanda Rusiyanın da Ermənistana aid yükləri Azərbaycan ərazisindən daşıdığı bildirilir.

Paşinyanın təklif etdiyi plana görə, yük maşını Türkiyədən Ermənistana Marqara vasitəsilə daxil olur. Bura Kəlbəcərin işğalından sonra bağlanan keçid məntəqəsidir. Ekspertlər hesab edir ki, Paşinyan hiyləgər gedişlə 30 ildən artıqdır Türkiyə ilə bağlı olan sərhədin açılmasına nail olmaq istəyir. Marqaradan daxil olan yük maşını Ermənistan daxilində təxminən 270 kilometr hərəkət etməlidir. Eyni zamanda Türkiyədən Azərbaycana daşınan yüklərin həcmini nəzərə alsaq, İrəvan tranzitdən böyük miqdarda pullar qazanmaq niyyətindədir. N.Paşinyanın təklif etdiyi marşruta əsasən, yük maşınları Gorusdan keçməklə Laçındakı sərhəd buraxılış məntəqəsinə gəlməli, oradan Azərbaycanın digər ərazilərinə hərəkət etməlidir. Sosial şəbəkədə daha rahat və sürətli yol təklifi də var. Məsələn, Gorus-Qarakilsə-Biçənək-Naxçıvan-Sədərək-Türkiyə. Hesab olunur ki, dağ yolları ən azı iki dəfə qısalacaq və yolun əksər hissəsi Azərbaycan ərazisi ilə keçəcək.




Amma ümumi mövqe bundan ibarətdir ki, Ermənistan bu təkliflə diqqəti Zəngəzur dəhlizindən yayındırmağa çalışa bilər. Azərbaycan Prezidenti isə Zəngəzur dəhlizinin ölkəmiz ərazisindəki hissəsinin 2026-cı ildə tikilib başa çatdırılacağını deyib və Ermənistana da işləri 2028-ci ilədək başa çatdırmağın zərurəti barədə xəbərdarlıq ünvanlayıb.

Ermənistanın baş naziri Nikol Paşinyan onu da bəyan edib ki, Azərbaycanla sülh artıq mövcud və formalaşmış reallıqdır, lakin erməni cəmiyyəti hələ bu yeni şəraitdə yaşamağı öyrənməlidir. **Musavat.com xəbər verir ki, Paşinyan parlamentdə büdcə dinləmələri zamanı çıxış edərək bildirib:** “Biz qəbul etməliyik ki, sülh bizim üçün yeni və tanış olmayan anlayışdır. Ermənistan müstəqilliyin ilk günündən münaqişə şəraitində yaşayıb. Ona görə də sülh şəraitində düşüncə tərzi formalaşdırmaq asan deyil”. Baş nazirin sözlərinə görə, Azərbaycanla sülh artıq mövcuddur və gündəlik reallığın bir hissəsidir.

**Paşinyan bəyan edib ki, Ermənistan ordusunun missiyası ölkənin beynəlxalq səviyyədə tanınan sərhədlərindən kənarda müharibə aparmaq deyil, yalnız ölkəni qorumaqdır:** “Ermənistan ordusunun vəzifəsi yalnız ölkənin suveren ərazisinin müdafiəsidir. Biz "döyüş qabiliyyətli ordu" anlayışını gündəlik leksikonda "müdafiə qabiliyyətli ordu" anlayışı ilə əvəz etməliyik”.

Ermənistanın baş naziri ölkəsinin ABŞ ilə “Tramp marşrutu” adlandırılan təşəbbüs çərçivəsində fəal şəkildə əməkdaşlıq apardığını bildirib. O, əlavə edib ki, sülhün qorunması və möhkəmləndirilməsi Ermənistan hökumətinin əsas prioritetlərindən biridir. Paşinyanın sözlərinə görə, “Tramp marşrutu” üzrə ABŞ ilə aparılan danışıqlar da məhz bölgədə uzunmüddətli sabitliyin təmin edilməsinə yönəlib.

Amma İrəvan hələ də sülhün açarı sayılan konstitusiya dəyişikliklərinə getməyə həvəsli görünmür. Ermənistanın ədliyyə naziri Srbui Qalyan bildirib ki, Konstitusiya Dəyişiklikləri üzrə Şurada hələlik müstəqillik bəyannaməsinə istinad və konstitusiyanın birinci fəslinə dair məsələlər müzakirə olunmayıb. Musavat.com bildirir ki, erməni nazir bu barədə jurnalistlərlə söhbətində məlumat verib. Onun sözlərinə görə, Şuranın iclasları artıq daha tez-tez keçirilir və son iclasda bir neçə məsələ səsverməyə çıxarılıb, bəzi ifadələrin formulu müəyyənləşdirilib. Yaxın həftələrdə isə ictimaiyyətə şuranın fəaliyyəti barədə məlumat vermək üçün maarifləndirici kampaniyaya başlanması planlaşdırılır. Qalyan qeyd edib ki, müstəqillik bəyannaməsinə istinad və konstitusiyanın birinci fəslinə aid məsələlər hələlik gündəliyə daxil edilməyib.

Azərbaycan və Türkiyə tərəfi hələlik Paşinyanın yol təklifinə reaksiya verməyib. Xəritəyə əsasən, Paşinyanın təqdim etdiyi marşrut Türkiyə-Ermənistan sərhədindəki Marqara keçid məntəqəsindən başlayır. Yüklər əvvəlcə İğdır vilayətindən Arpaçay körpüsü üzərindən Ermənistana daxil olacaq, daha sonra Yeğeqnadzor (Vayots Dzor vilayəti) və Sisian (Sünik vilayəti) şəhərlərindən keçərək Gorusa, oradan isə Kornidzor istiqamətinə hərəkət edəcək. Kornidzor kəndi Azərbaycan sərhədinə, yeni keçmiş Laçın dəhlizinin başlanğıc nöqtəsinə çox yaxındır.

**Modern.az-a açıqlamasında Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin üzvü Rasim Musabəyov bildirib ki, Azərbaycanın Türkiyə ilə əlaqəsi üçün heç də bu marşruta ehtiyac yoxdur:** “Türkiyə ilə əlaqəmiz Gürcüstan vasitəsilə baş tutur. Həm dəmir yolu, həm də avtomobil yolu mövcuddur. Bunlar yolun içərisində Sisian və Gorus var deyirlər. Belədirsə, həmin Sisian və Gorusu Naxçıvandan kommunikasiya üçün açsınlar. Türkiyə də oradan gəlib keçə bilər”. **Parlamentari vurğulayıb ki, Ermənistan belə təkliflərlə Zəngəzur dəhlizini gündəmdən çıxara bilməz:** “Ona görə ki, dəmir yolu oradan keçir. Onlar hesab edirlər ki, ora dəmir yolu üçün qalsın, avtomobil yolu üçün isə Sisian-Gorus yolundan istifadə edilsin. Bizə birinci növbədə Naxçıvandan avtomobil yolu ilə kommunikasiyanın açılması lazımdır. Dəmir yolu Naxçıvandan yüklərin daşınması üçün, insanların keçidi üçün təmin olunacaqsa, buyursunlar. Ermənilər bizim yoldan keçə bilmirlər. Sadəcə olaraq, qazax və rus yükləri Azərbaycandan keçərək Gürcüstan vasitəsilə Ermənistana daxil ola bilər. Bunlar da yolu, sadəcə, Türkiyə avtomobilləri üçün açmaq istəyirlər. İnanmıram ki, türklərin bu yolda elə də böyük marağı olsun”.

**Deputat Sahib Alıyev isə “Yeni Müsavat”a açıqlamasında bunları söylədi:** “Paşinyan ilk dəfə deyil ki, belə bir açıqlama verir. Bu yaxınlarda Tiflisdən də buna oxşar fikir səsləndirmişdi. Amma məsələ burasındadır ki, əgər söhbət Zəngilanla Ordubad arasında tranzitdən getmirsə, onda onun bu təklifi daha çox Türkiyə ilə Ermənistan arasında yolun açılması ilə bağlıdır, nəinki Azərbaycana qarşı qadağanın aradan qaldırılması ilə”. **S.Alıyev xatırlatdı ki, Zəngəzur dəhlizindən keçəcək dəmir yolunun çəkilişi üçün haradasa 3 il tələb olunsa da, avtomobil yolu tez bir zamanda işlək hala gətirilə bilər:** “Ermənistanın baş naziri bu yolun açılmasına hazırdırmı? Əgər hazırdırsa, fikrimcə, Azərbaycan da öz növbəsində Qafan-Gorus yolunun Qubadlı rayonundan keçən hissəsini yenidən onlar üçün aça bilər. Ancaq görünən budur ki, Paşinyanın açmaq istədiyi başqa yoldur ki, burada da məqsəd, bir daha vurğulayıram, açmaqdan çox açdırmaqdır”.

❑ E.PAŞASOY,
“Yeni Müsavat”

YENİ MÜSAVAT
N 195 (8805) 28 oktyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

## Azərbaycançılıq ideyasının təbliği

# Turan birliyinin əsası necə qoyuldu?

## “Bir millət, iki dövlət” şüarı “bir millət 6 dövlət” şüarına çevrilir

**Ötən həftə Azərbaycan Prezidenti İlham Əliyevin Qazaxıstana iki günlük dövlət səfəri Türk dünyası ölkələrinin münasibətlərinin daha da yaxınlaşmasına xidmət etdi. Azərbaycanla Qazaxıstan arasında tarixi dostluq-qardaşlıq münasibətləri hələ Ulu öndər Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə dərin özülü qoyulmuş münasibətlərdir.**

Heydər Əliyev Türk dünyasının birliyinə Qazaxıstan da daxil, digər türkdilli respublikaların ikitərəfli münasibətlərinin dərinləşdirilməsi ilə nail olmağın ən effektli yol olduğunu çıxışlarında ifadə edirdi. Ulu öndər bu siyasi xətti çıxışlarında ifadə etməklə təbii ki, kifayətlənmirdi, praktiki addımlarla, türkdilli ölkələrə səfərlərlə, əməkdaşlığı dərinləşdirməklə Türk dünyasının birliyinin təməlini qoyurdu. Heydər Əliyevin azərbaycançılıq ideologiyası eyni zamanda vahid türk birliyində cəmləşməyi də özündə ehtiva edir. Heydər Əliyev və Türk dünyası geniş bir mövzu olaraq, Azərbaycan xalqının Ümummilli liderinin ayrı-ayrı türk dövlətləri və xalqları ilə çoxcəhətli əlaqələrini özündə cəmləşdirir. Heydər Əliyevin türk dünyası ilə siyasi, diplomatik, iqtisadi, sosial, hərbi sahələri əhatə edən çoxcəhətli fəaliyyətində elm, təhsil, ədəbiyyat və incəsənət istiqamətlərinin də özünəməxsus yeri və əhəmiyyəti var.

Bu barədə “Yeni Müsavat”a danışan **deputat Elman Nəsirov** tarixi nümunə olaraq xatırlatdı ki, Ümummilli lider Heydər Əliyev hələ sovet hakimiyyətinin Türkiyə Cümhuriyyəti ilə əlaqələrinin ən çətin və gərgin olduğu XX əsrin yetmişinci illərində qardaş ölkənin o zamankı tanınmış dövlət xadimi Süleyman Dəmirəllə ünsiyyət yaratmış və dostluq münasibətləri qurmuşdu: “Məqsəd şübhəsiz ki, bu yolla Türkiyə ilə Azərbaycan arasında əlaqələr yaratmaq idi. Zaman göstərdi ki, dünyamiqyaslı siyasətçinin qurduğu dostluq əlaqəsi uzun illər sonra Azərbaycanın ən çətin günlərində köməyə çatdı. 1990-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasının ermənilər tərəfindən işğalının qarşısının alınmasında və Qarabağ məsələsinin həlli proseslərində Azərbaycan üçün son dərəcə faydalı olmuşdur. Türkiyə Cümhuriyyətinin prezidenti Süleyman Dəmirəlin özünün xüsusi təyyarəsi ilə Naxçıvana gəlib, burada böyük və etibarlı dostu Heydər Əliyevlə birlikdə işğalçı Ermənistana sərt bəyanatlar səsləndirməsi XX əsrin doxsanıncı illərinin mürəkkəb dövründə Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edirdi. Süleyman Dəmirəlin Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında Araz çayı üzərində salınmış Ümid körpüsünün açılışı mərasimində Heydər Əliyevlə birlikdə iştirak etməsi və nitq söyləməsi təkcə Azərbaycan üçün yox, Türk dünyasından ötrü son dərəcə əhəmiyyətli hadisə idi. Türk dünyasının iki nəhəng liderinin 28 may 1992-ci il tarixdə Araz çayı üzərində açdıqları Sədərək-Dilucu Ümid körpüsü yalnız Azərbaycanla deyil, bütün Türk dünyası ilə Türkiyəyə əhəmiyyətli bir qapının açılması deməkdi”.



**Deputat qeyd etdi ki, Ulu öndər Heydər Əliyevin Azərbaycan-Türkiyə münasibətləri və bütün Türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edən “Bir millət, iki dövlət” düsturu öncə Azərbaycanla Türkiyənin milli şüarına çevrilmişdisə, artıq bütün türk dövlətlərinin “bir millət 6 dövlət” şüarına çevrilərək türk dünyasını birləşdirir:** “Dahi lider bildirirdi ki, gün gələcək türk dövlətləri vahid bir orqanizm halında ittifaq quracaqlar. Hazırda Türk dünyasının ortaq problemləri istiqamətləndirmək, qarşılıqlı əməkdaşlıq, birlik və həmrəylik missiyasını nüfuzlu beynəlxalq təşkilat kimi fəaliyyət göstərən Türk Dövlətləri Təşkilatı uğurla həyata keçirir. Bütün bunlar isə Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin uzaqgörən arzularının həyata keçirilməsi deməkdir. Bu gün mövcud olan və güclənməkdə davam edən Türk Dövlətləri Təşkilatı Heydər Əliyevin bir zamanlar söylədiyi bu fikrin də reallığa çevrildiyinin təsdiqidir”.

Həmsöhbətimiz onu da dedi ki, Heydər Əliyevin hələ sovet hakimiyyəti illərində Qazaxıstanda və Özbəkistanda baş verən gərgin hərbi-siyasi hadisələr zamanı Siyasi Büro səviyyəsində qazax və özbək xalqlarının mənafelərini müdafiə etməsi bütün tərəfləri ilə bir sırada həm də onun ortaq türk köklərinə bəslədiyi yüksək münasibətin ifadəsi idi: “Ulu öndərin türk xalqlarına münasibəti müasir dövrün siyasi hadisələrindən ortaq folklor abidələrinə qədərki geniş mənaları əhatə edirdi. Türk dünyasının ortaq dəyərlərinə xüsusi ehtiram bəsləmiş dahi şəxsiyyətin "Kitabi-Dədə Qorqud", “Manas”, “Koroğlu” kimi folklor abidələrinə böyük ehtiramla yanaşması nəticə etibarilə onun ortaq türk köklərinə inamının və etibarının ifadəsi idi. Ulu öndər Heydər Əliyevin Türk dünyası ilə əlaqələri ortaq köklərə malik olan xalqlar arasında siyasi etimad, qarşılıqlı əməkdaşlıq, ədəbiyyatlar və mədəniyyətlər arasında dialoq və sair kimi istiqamətlərdə artıq tarixə çevrilmiş hadisələrdən geniş şəkildə bəhs etməyə imkan yaradır.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Etibar SEYİDAĞA**

# Rəhmon niyə Putini həbs etmədi?..

**Son beş-üç həftədə prezident Tramp çox böyük “oborot” götürdü. Amma nə Qəzzada, nə də Ukraynada həlledici müstəviyə adlamaq mümkün olmadı. Azmış, ABŞ prezidentinin hətta Nobel sevdası belə gerçək olmadı.**

**Hüseynbala SƏLİMOV**



Ona görə lap əvvəl sonuncudan, Nobel məsələsindən başlamaq istərdik. Bilirlisiniz, nə ləzzət elədi? Nobel Komitəsindən daim gileylər olur, xüsusən də sülh sahəsində mükafat daim mübahisələrə səsbəb olur. Amma məlum oldu ki, yeri gələndə Nobel Komitəsinin qərarına heç ABŞ kimi dövlət də təsir edə bilmir.

Amma prezident Trampı məyus etmək istəməzdik. Qarşıda hələ mükafatlar çox olacaq, səhv etmirəmsə, prezident Karter Nobel mükafatını prezidentlikdən çox-çox sonra aldı. Düzdür, prezident Tramp o qədər gənc deyil ki, oturub on illərlə Nobel komitəsinin qərarını gözləsin, amma qarşıda azı üç il var, hərçənd, bu da çox azdır: hətta elmdə də Nobel kəşflər tamam təsdiqlənəndən, hamı tərəfindən qəbul və etiraf olunandan sonra verilir...

Yaxın Şərqə gəldikdə, dərhal yazmışdıq ki, atəşkəs və əsirlərin mübadiləsi hələ başlanğıcın başlanğıcıdır. Qarşıda bilirsiniz nə qədər problem və mərhələ var? Həm də Qəzza hələ bütün Fələstin deyil axı! Bütövlükdə Fələstin məsələsi həll oluna biləcəkmi? Bax, problem bundadır! Elə bugünlərdə oxuduq ki, Qəzzanı iki zonaya bölmək təklif olunur: bəli, bu gün iki, sabah üç, sonra da heç...

Ukraynada da məsələlər alınmır, bildiyimə görə. Tramp Putini nə sülhə məcbur edə bilir, nə də Rusiyaya qarşı həlledici döyüşə qərar verir. Hələ yalnız sanksiyalardan danışırlar. Amma Moskva hər dəfə onları müxtəlif yollarla dəf edə bilir.

Bu da hamısı deyildir. Qərb siyasətçiləriniun özləri də etiraf edirlər ki, sanksiyaların özlərində belə onu qəbul edənlər giriş-çıxışlar qoyurlar və Kreml də bundan məharətlə istifadə edir. Həm də Ukrayna məsələsi tək sanksiyaların öhdəsinə buraxılsa, on illəri gözləmək lazım gələcək.

Qonşu İranı götürün, neçə illərdir sanksiyaların altındadır, amma mollalar hələ də dizlərini yerə qoymurlar. Məgər Rusiyanın resursları İranınkından azdır?..

Bir sözlə, Tramp hələ düşünür ki, guya sansksiyalarla Putini nəyəsə məcbur edə bilər. Gah deyirlər ki, Putin və Tramp filan yerdə görüşəcək, gah Avropanın bəzi səfeh siyasətçiləri buyururlar ki, Rusiya prezidentini görüş yerinə çatan kimi həbs etmək lazımdır!

Gülünc deyilmi? O boyda ölkənin prezidentini həbs etmək asandır? Adamın gülməyi gəlir: yenə də həmin Avropa “siyasətçi”lərinin bəzisi güleylənir ki, guya Putin Düşənbədə həbs olunmalı idi. Bəli, İmoməli Rəhmon guya Putini həbs etməlidi! Siz Allah, gülməli deyilmi? Putin uşaqdır, nədir? Düzdür, Beynəlxalq Cinayət Məhkəməsi onun haqqında qərar verib, amma adam adi oğrubaşıdırmı ki, beynəlxalq axtarışa verib damlayasan? Ona qalsa, B.Netanyahu qat-qat kiçik ölkənin lideridir, gəl, onu həbs etmək olurmu?..

Qərəz, elə bil dünya tamam məhvərindən çıxıb. Hər şey biri-birinə qarışıb, ipin ucunu tapmaq olmur. Azərbaycanda da bir məsələ Yaxın Şərq məsələsini də, Ukrayna olaylarını da arxa plana keçirib. Bəli, gündəmi zəbt edən bu məsələnin də geosiyasi məqamları var, ən azı belə iddia olunur, özü də çox ciddi şəkildə. Ona görə də məsələ ilə bağlı ikicə qeydimiz olacaq.

Bilirsinizmi, ölkədə rusiyapərəst qüvvələrin gücə çevrilməsi, özü də təhlükəli dərəcədə gücə çevrilməsi heç də təsadüfən olmadı. Bir ara çox təəssüf, ölkə Rusiyaya tərəf çox meyl etdi. Başa düşürük, müəyyən problemlərin həlli üçün bu da lazım idi, o cümlədən də Dağlıq Qarabağ probleminin həlli üçün: axı Kreml nisbi neytrallıq göstərməsəydi, biz onu həll edə bilməyəcəkdik!

Amma rusiyapərəst qüvvələr bundan tamam başqa, çox uzağa gedən “nəticə”lər çıxardılar.

İkincisi, məsələnin geosiyasi tərəflərini qoyaq bir yana. Daxili məqamlara baxaq. Belə hadisələr birinci dəfə baş vermir. Üç ildən, beş ildən bir belə hallar təkrarlanır. Hansısa böyük ona göstərilən etimaddan, ona verilən səlahiyyətlərdən istifadə edərək bir də görürsən az qala, ölkəni dağıdır. Ona görə də gəlin fikirləşək: bəlkə bizim siyasi sistemimizdə hansısa qüsurlar var?..

YENİ MÜSAVAT
N 195 (8805) 28 oktyabr 2025

# Postsovet ölkələri ona “tapşırıldı” - müəmmalı plan

## Keçmiş ittifaq respublikaları üçün yeni təhlükə?

**“Rosatom” şirkətinin keçmiş vəzifəli şəxsi Vadim Titov Rusiya Prezident Administrasiyasının yeni yaradılmış Strateji tərəfdaşlıq və əməkdaşlıq idarəsinin rəisi təyin edilib. Müvafiq sərəncam Rusiya Prezidenti Vladimir Putin tərəfindən imzalanıb.**

Yeni qurum haqqında qərar avqustun 29-da verilib. Həmin vaxt Rusiya Prezident Administrasiyasının beynəlxalq əməkdaşlıq və sərhədyanı əlaqələrə cavabdeh olan iki idarəsi ləğv edilib. Bu idarələrə nəzarəti həyata keçirən Dmitri Kozak sentyabr ayında administrasiya rəhbərinin müavini vəzifəsindən istefa verib.

Titovun rəhbərlik etdiyi idarə əsasən postsovet məkanı və Afrika ölkələri ilə əlaqələr istiqamətində fəaliyyət göstərəcək. Yeni strukturun işinə Prezident Administrasiyası rəhbərinin birinci müavini Sergey Kiriyenko kuratorluq edəcək.

Vadim Titov bu təyinatadək “Rosatom - Beynəlxalq Şəbəkə” şirkətinin baş direktoru olub.

Qeyd edək ki, Kremlə yaxın avrasiyaçı politoloq, mifik “Rus dünyası”nın əsas ideoloqlarından və təbliğatçılarından olan Aleksandr Duqin artıq özünə xas tərzdə hadisəyə reaksiya bildirib. O, Vaşinqton anlaşmasını “Rusiyanın Cənubi Qafqazdakı siyasətinin iflası” adlandırıb. “Rusiya regionda nüfuzunu itirib, günahkarlar isə cəzasız qalır. Səhvləri etiraf etmək və böyük dövlət statusunu bərpa etmək zamanıdır”, - Duqin qəzəbini gizlətməyib.

O, ötən həftə də Rusiyanın imperiya olduğunu və onun bərpasının zəruriliyini bildirmişdi. Ukrayna müharibəsi isə Kremlin strateji mövqelərini zəiflədib. Rusiya postsovet məkanına əvvəlki diktəsini edə bilmir.

Yeni təyinat hansı hazırlıqlardan xəbər verir, Rusiya Cənubi Qafqazda, Mərkəzi Asiyada təsir gücünü təzədən artıra bilərmi?

**Politoloq Qabil Hüseynli** “Yeni Müsavat”a bildirdi ki, Rusiya Prezidenti Vladimir Putin və rus imperiyasını yenidən bərpa etmək, gücləndirmək ideologiyasının daşıyıcıları dəfələrlə bəyan SSRİ-nin dağılmasını bədbəxtçilik və böyük faciə hesab edirlər: “Onlar Cənubi Qafqaza, Orta Asiyaya, ümumilikdə keçmiş SSRİ ölkələrinə münasibətdə hələ də bu fikrin təsiri altında yanaşırlar. Keçmişi geri qaytarmaq, itirilən təsiri bərpa etmək üçün müxtəlif variantlar fikirləşirlər. Hələ də keçmiş SSRİ imperiyasının sərhədlərini bərpa etmək niyyətində qalırlar. Ukraynaya qarşı işğalçılıq müharibəsinə başlamaq məhz bu ideyanın reallaşdırılması üçün idi. Sadəcə olaraq, Ukrayna dövləti və xalqının böyük direniş göstərməsi, Qərbin mövqeyi Rusiyanın planını gerçəkləşdirməsinin qarşısını aldı. Rusiya Ukraynanı qısa müddətdə tam ələ keçirsəydi və müharibə uzanmasaydı, növbə Qazaxıstana, ondan sonra isə digər postsovet respublikalarına çatacaqdı. Vladimir Putinin iki gün öncə hərbi mundirlə görüntülənməsi də Rusiyanın güc yolundan imtina etmədiyinin xəbərdarlığı idi. Bu xəbərdarlıq bütün keçmiş ittifaq respublikalarınadır. Rusiya Cənubi Qafqazda təsir gücünü Ermənistanda gələn il keçiriləcək seçkilərdə rusiyapərəst qüvvələri hakimiyyətə gətirməklə ciddi şəkildə artırmaq niyyətindədir. Bu niyyətini gizlədə bilmir. Əslində Rusiyanın Cənubi Qafqaza təsir imkanları hazırda da var. Amma keçmişdə olduğu kimi güclü deyil. Rusiyanın məqsədi Cənubi Qafqazı tamamilə öz təsir dairəsinə daxil etməkdir. Çünki uzun on illiklər boyu bu bölgəni hətta ittifaq adı ilə işğal altında saxlaya bilib. İndi keçmişin xiffətini yaşayan Moskva şübhəsiz yeni planlar üzərində çalışır ki, keçmiş təsir gücünü geri qaytarsın. Eyni fikirləri demək olar ki, Orta Asiya respublikaları haqqında da söyləmək mümkündür. Orta Asiya ölkələrinin son illər müyyən qədər müstəqil siyasət yürütməsi, birlik nümayiş etdirməsi, iqtisadiyyatlarında yüksəlişə nail olmaları Moskvanı qıcıqlandırır”.



Vadim Titov

**Politoloq dedi ki, Rusiya Prezidenti Administrasiyasına tabe Strateji Tərəfdaşlıq və Əməkdaşlıq İdarəsinin yaradılması və bu təsisatın qarşısın qoyulan missiya Moskvanın qarşıdakı illərdə Cənubi Qafqaz və Orta Asiya respublikaları siyasətinə xüsusi yanaşacağının anonsudur:** “Ancaq yeni bir xüsusi idarənin yaradılması və yeni təyinat Rusiyanın Cənubi Qafqaz və Orta Asiya ilə bağlı niyyətinin asanlıqla həyata keçiriləcəyi anlamına gəlməməlidir. Necə deyərlər, artıq qatara gedib. Rusiyanın postsovet respublikaları ilə birbaşa məşğul olan xüsusi qurumları, təsisatları həmişə olub. Onlardan əslində ən böyüyü Vederal Təhqiqatlar Bürosudur. Bu xüsusi qurum daim qeyd olunan məkanda aktiv fəaliyyət göstərməyə çalışıb. Lakin görürük ki, artıq FTB kimi qurum belə, əvvəlki mövqeləri qoruyub saxlamağı və bərpa etməyi bacara bilmir”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# “Putinin pulu və əsgəri tükənir...” - sülh qapıda?

## Analitik: “Nə Ukraynada, nə də Rusiyada məğlubiyyət əhval-ruhiyyəsi var”

**“Rusiya Prezidenti Vladimir Putin Ukraynaya qarşı müharibədə çoxlu əsgər və pul itirib. İndi təzyiqi artırmağın vaxtıdır”.**

NATO-nun baş katibi Mark Rutte bunu “qətiyyətlilər koalisiyası”nın iclasından sonra keçirilən mətbuat konfransında bildirib.

“Həqiqət belədir ki, Putinin pulu, ideyaları və əsgərləri tükənir. Prezident Tramp çox yaxşı deyib ki, onlar olduqları yerdə dayanmalıdırlar. İndi məhz Rusiyaya təzyiqi artırmağın vaxtıdır ki, Ukrayna üçün ədalətli sülhə nail ola bilək”, - Rutte əlavə edib.

Rusiya prezidentinin xüsusi nümayəndəsi, ötən həftə ABŞ-də olan Kirill Dmitriyev isə Moskva və Kiyev arasında diplomatik danışıqların bərpası üçün şəraitin formalaşdığını bildirib. Onun sözlərinə görə, Rusiya və Ukrayna “ağlabatan dərəcədə yaxın” mərhələyə çatıb və müharibənin diplomatik yolla başa çatması mümkündür.

“Mən deyərdim ki, tərəflər artıq diplomatik həllə çox yaxındır. Əsas məsələ danışıqların formatının müəyyənləşdirilməsidir. Hər iki tərəfdə sülh istəyi formalaşmağa başlayıb”, - deyə Dmitriyev vurğulayıb.



Xatırladaq ki, son həftələr Qərb və Rusiya rəsmiləri arasında gizli diplomatik təmasların artdığı bildirilir. Analitiklərin fikrincə, Tramp administrasiyasının bu prosesi dəstəkləməsi Moskva-Kiyev münasibətlərində dönüş nöqtəsi ola bilər.

NATO baş katibi haqlımı? Sülh gerçəkdənmi yaxındadır?

**Siyasi şərhçi Heydər Oğuz** isə bu nikbinliyi bölüşmür. Onun “Yeni Müsavat”a verdiyi açıqlamaya görə, son zamanlar Ukrayna ətrafında vəziyyət daha da gərginləşib: “Həm Rusiyanın, həm də Ukraynanın qarşı tərəfə hücumlarının sayı artıb. Qərb mediasının yazdığına görə, Rusiya Ukrayna savaşında yeni taktikalardan istifadə etməyə başlayıb. Faktiki olaraq iki əsas istiqamətə - şimal və cənub cəbhələrinə yönələn bu hücumların ana məqsədi Ukrayna ordusunu iki yerə bölməkdir. Hədəf təkcə Ukraynanın kəmiyyətcə onsuz da yetərsiz olan gücünü parçalamaq da deyil. Hədəf həm də sənayeləşmiş Şərqi Ukraynanı qərb rayonlarında istehsal olunan enerji resurslarından məhrum etməkdir. Bu həm də qərb rayonları ilə şərq rayonları arasında təchizat xətlərini kəsmək anlamına gəlir.

Rusiyanın digər bir strategiyası qış aylarında Ukraynanı dondurucu soyuqla imtahana çəkmək və onun müqavimət gücünü qırmaqdır. Məhz bu səbəbdən də Rusiya Ukraynanın enerji müəssisələrini ağır bombardmana tutur və xüsusilə elektrik xətlərini dardmadağın edir.

Bundan əlavə, Rusiyanın döyüş silahlarını da təkmilləşdirdiyi bildirilir. Müharibənin əvvəlində İranın primitiv “Şahed” dronları ilə hücuma keçən Rusiya rast gələ zərbələrlə Ukrayna ordusunu taqətdən salmağa çalışırdı. İndi isə o, “Şahed” dronlarını xeyli modernləşdirib. Əvvəla, sürətini 300 km/saata qədər yüksəldib. Digər tərəfdən, bu dronlara ağıllı texnologiyalar əlavə edib. Xüsusilə son mənzilinə yaxınlaşanda işə düşən bu mexanizmlər sayəsində dronlar manevləri rahatlıqla atlaya və hədəfi dəqiq vura bilirlər".

**Heydər Oğuzun fikrincə, Ukrayna da boş dayanmayıb:** “Avropa ölkələrindən aldığı dəstəklər sayəsində öz raket və dron texnologiyalarını inkişaf etdirən Kiyev 3000 km-lik mənzilə sahib sursatlarla təchiz olunub. İndi Rusiyanın istənilən nöqtəsinə ağır zərbələr endirmək imkanına malikdir.

Bundan əlavə, ABŞ-nin son zamanlar Rusiyaya qarşı tətbiq etdiyi sanksiyalar da ciddi xarakter almağa başlayıb. Qərb analitiklərinin hesablamalarına görə, bu sanksiyalar Rusiyanın neft və qaz ixracını yarıbayarı azaldacaq. Nəticədə Kremlin müharibə büdcəsi böyük ölçüdə daralacaq və rus ordusu əvvəlki gücünü itirəcək. Rusiyanın ən böyük neft və qaz şirkətləri sayılan “Rosneft” və “Lukoil”ə tətbiq olunan ağır sanksiyalar nəticəsində ölkə iqtisadiyyatının ağır böhran keçirəcəyi hətta Kreml tərəfindən də istisna olunmur. Putin bu yaxınlarda verdiyi açıqlamada sanksiyaların Rusiyadan təsirsiz ötüşməyəcəyini etiraf etmiş, bununla belə, xarici basqılara boyun əyməyəcəyini bildirmişdi.

Ən əsası isə Ukraynanın çoxdan arzuladığı uzaqmənzilli Qərb silahları alması da artıq reallığa çevrilmək üzrədir. Bu zamanadək Ukraynaya çox görülən uzaqmənzilli silahların indi verilməsi təklifləri ciddi şəkildə müzakirə olunur. Ukraynanın əlində olan, amma istifadəsinə icazə verilməyən raketlər üzərindəki qadağalar da aradan qaldırılıb. Bütün bunlar isə istər-istəməz Ukraynanın qələbə ümidlərini artırır".

**Siyasi şərhçi həm Rusiyanın, həm də Ukraynanın qələbə ümidinin müharibənin sonlandırılmasına mane olduğuna inanır. Onun fikrincə, istənilən müharibə o zaman sülhlə nəticələnir ki, tərəflərdən ən azı biri qələbəyə ümidini itirir və güzəştə getməyə razılaşır:** “Nə Ukraynada, nə də Rusiyada bu məğlubiyyət əhval-ruhiyyəsinin əlaməti var. Bu səbəbdən də mən Ukrayna savaşının yaxın günlərdə sona çatacağı barədə nikbin proqnozlara inanmıram”.

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

**Prezident Administrasiyasının və Milli Elmlər Akademiyasının sabiq rəhbəri Ramiz Mehdiyevin Azərbaycanda dövlət çevrilişi həyata keçirmək istədiyi və bununla bağlı Rusiyanın müəyyən strukturlarının rəhbərlərinə məktub ünvanladığı barədə mediada məlumat verilib.**




# Mehdiyevin Rusiyaya şok məktubu - tam mətn

Həmin məktubun Azərbaycan xüsusi xidmət orqanlarının əlinə keçdiyi barədə də informasiyalar yayılmışdı.

Bəziləri belə məktubun olmadığını, onun mövcudluğuna inanmadıqlarını iddia etsələr də, təqdim etdiyimiz fakt Ramiz Mehdiyevin həqiqətən də xarici ölkənin köməyi ilə Azərbaycanda hakimiyyət çevrilişi planı gerçəkləşdirmək xülyasına düşdüyünü göstərir.

Musavat.com APA-ya istinadən Ramiz Mehdiyevin ünvanladığı məktubu təqdim edir.

Xüsusi qeyd etmək yerinə düşər ki, belə bir planı həyata keçirmək nə Ramiz Mehdiyevin, nə də onun əlaqə qurduğu dairələrin imkanında deyil. Sadəcə, buna cəhd etmək onun əsl riyakar xislətini nümayiş etdirir.

**Ramiz Mehdiyevin Kremlə yazdığı məktubun məzmunu belədir:**

*Dövlət idarəetmə sistemində islahatlarla bağlı təkliflər*

Son illər dövlət idarəetmə sistemini və Azərbaycanın iqtisadi həyatını bürümüş dərin böhran radikal islahatların və yenidənqurmanın həyata keçirilməsini tələb edir.

Mövcud idarəetmə sisteminin səmərəsizliyi bir tərəfdən hazırkı hakimiyyətin xarakteri, davranışları və baxışları ilə bağlıdırsa, digər tərəfdən, bu struktur özü avtoritarizm ruhu ilə sıradan çıxmış və iflic vəziyyətinə düşmüşdür.

Bu idarəetmə sisteminin əsas cizgilərini yalnız referendum vasitəsilə dəyişdirmək mümkündür.

Yeni idarəetmə modelinin və prinsiplərinin hazırlanması zamanı ilk növbədə Azərbaycan xalqının siyasi psixologiyası, dövlətə dair ənənəvi gözləntiləri nəzərə alınmalı, ölkənin sosial-iqtisadi həyatında durğunluğun real səbəbləri müəyyən edilərək aradan qaldırılmalıdır.

Uzun illər strateji dövlət orqanlarına rəhbərlik etdiyim dövrdə topladığım idarəçilik təcrübəsi, həmçinin müasir Azərbaycanın siyasi inkişafı ilə bağlı apardığım elmi araşdırmalar mənə aşağıdakı dövlət idarəetmə sisteminin formalaşdırılmasının zəruriliyini göstərir:

**1.** *Dövlət hakimiyyəti üç qoldan ibarət olmalıdır:*

** qanunverici,*

** icraedici,*

** və məhkəmə hakimiyyəti.*

Bu üç qolu gənclər, iqtisadçılar, hüquqşünaslar, elm və mədəniyyət xadimləri arasından seçilən, cəmiyyətdə nüfuza malik 50 nəfərdən ibarət Dövlət Şurası nəzarət etməlidir.

Dövlət Şurası ümumxalq seçkisi yolu ilə formalaşdırılmalıdır.

Şuraya sədrlik edən şəxs elə Dövlət Şurasının üzvləri tərəfindən öz sıralarından seçiləcək.

Sədr yalnız Şura üzvlərinin səsverməsi ilə vəzifədən kənarlaşdırıla bilər.

Dövlət Şurasının səlahiyyətləri:

* ölkədə siyasi, sosial və iqtisadi proseslərə tam nəzarət,

* Konstitusiya Məhkəməsinin və Təhlükəsizlik Şurasının funksiyalarının icrası,

* parlamentin qəbul etdiyi qanunların və hökumət qərarlarının təsdiqi,

* güc strukturlarının rəhbərləri, məhkəmə sisteminin başçısı, Mərkəzi Bank rəhbərliyi və universitet rektorları üçün namizədlərin irəli sürülməsi.

Dövlət Şurasına qanunlara və qərarlara veto qoymaq hüququ verilir.

Dövlət Şurası 7 il müddətinə seçiləcək, üzvlər bu dövrdə toxunulmazlıq və immunitetə sahib olacaq.

Şura üzvləri yalnız elmi-pedaqoji fəaliyyətlə məşğul ola bilər və başqa heç bir fəaliyyət göstərə bilməz.

**2.** İcra hakimiyyətinin başçısı - Baş nazir olacaqdır.

Baş nazir parlament seçkilərində ən çox səs toplamış partiyanın sədri olacaq və həmin şəxs hökuməti formalaşdıracaq.

Hökumət ölkənin sosial-iqtisadi siyasətinin həyata keçirilməsinə görə məsul olacaqdır.

**3.** Qanunverici hakimiyyəti parlament həyata keçirəcək.

Parlament 7 ildən bir ümumxalq seçkisi ilə formalaşdırılacaq.

Parlament:

*hökumətin fəaliyyətinə dair hesabat qəbul edəcək,

* sosial-iqtisadi siyasətə cavabdeh olan nazirləri təsdiq edəcək,

* yalnız güc strukturlarının rəhbərləri bu qaydadan istisna təşkil edəcək.

4. Məhkəmə hakimiyyəti əvvəlki kimi Ali Məhkəmə və ona tabe strukturlar vasitəsilə həyata keçiriləcək.

**Nəticə**

Bu dəyişikliklər ölkəni prezident respublikasından effektiv nəzarət mexanizminə malik parlament respublikasına keçirəcək.

Bu islahatlar:

* avtoritarizm meyllərini zəiflədəcək,

* hakimiyyətin şəxsləşdirilməsinin qarşısını alacaq,

* dövlət fəaliyyətinə ictimai nəzarəti gücləndirəcək,

* beynəlxalq səviyyədə ölkənin demokratik imicini yaxşılaşdıracaq,

* siyasi qüvvələrin fəaliyyətinə geniş imkanlar yaradacaq,

* vətəndaş cəmiyyəti institutlarının möhkəmlənməsinə xidmət edəcək.

❑ **Ramiz MEHDİYEV, AMEA akademiki**
**Musavat.com**

# 30 nəfərlik dəstə tutuldu - Baş Prokurorluqdan açıqlama



**Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərini leqallaşdıran və əlavə dəyər vergisini talayan mütəşəkkil dəstə ifşa edilib.**

Bu barədə Baş Prokurorluğun Mətbuat Xidməti məlumat yayıb.

Bildirilib ki, Baş Prokurorluğun İstintaq idarəsində aparılan istintaqla ölkə ərazisində həssas əhali qrupuna aid, eləcə də məhdud hüquqi bilikləri olan şəxslərin müxtəlif vasitələrlə aldadılaraq onların adlarına sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq niyyəti olmadan hüquqi və fiziki şəxslərin təsis etdirilməsi, həmin qurumlar vasitəsilə əmtəəsiz maliyyə əməliyyatlarının aparılması və digər qanunazidd hərəkətlərin törədilməsi faktları üzrə cinayət işi başlanıb.

Aparılmış istintaq tədbirləri ilə çoxsaylı şəxslərdən ibarət olan, daxilində "vəzifə bölgüsü" aparılmış və vahid mərkəzdən idarə olunan mütəşəkkil dəstə tərəfindən qeyd olunan kateqoriyadan olan 300-dən çox şəxsin aldadılaraq sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq niyyəti olmadan onların adına ən azı 777 hüquqi şəxs və ən azı 103 fiziki şəxs qeydiyyatdan keçirilməklə, vəzifə saxtakarlığı etməklə çoxhəcmli əmtəəsiz maliyyə əməliyyatları aparılıb yalançı sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqla, dövlətin maliyyə nəzarəti mexanizmlərini zəiflətməklə, yalançı şirkətlər vasitəsilə qeyri-qanuni gəlirləri leqallaşdırmaqla, statistik göstəriciləri saxtalaşdırmaqla ölkə iqtisadiyyatına ümumilikdə 81,5 milyon manatdan çox zərər vurulmasına, eləcə də əldə etdikləri həmin pul vəsaitlərini onların əldə edilməsinin həqiqi mənbəyinin, kimə məxsus olmasının ört-basdır edilməsi və gizlədilməsi məqsədilə konversiya etməklə, köçürtməklə, maliyyə əməliyyatları aparmaqla və digər əqdlər həyata keçirtməklə leqallaşdırılmasına, habelə dövlət büdcəsinə məxsus 8 milyon manatdan çox əlavə dəyər vergisi məbləğlərinin dələduzluqla talanmasına əsaslı şübhələr müəyyən edilib.

Həmin cinayətləri törətmiş mütəşəkkil dəstənin rəhbər üzvləri də daxil olmaqla, ümumilikdə 30 şəxs Cinayət Məcəlləsinin 178.4 (dələduzluq, xüsusilə külli miqdarda törədildikdə), 193.3.1 (xüsusilə külli miqdarda ziyan vurmaqla yalançı sahibkarlıq) , 193-1.3.1, 193-1.3.2 (cinayət yolu ilə əldə edilmiş əmlakı leqallaşdırma mütəşəkkil dəstə tərəfindən xeyli miqdarda törədildikdə) və digər maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq onlara həmin maddələrlə ittiham elan edilib, həmin təqsirləndirilən şəxslərdən 10-nun barəsində istintaq orqanının vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə həbs-qətimkan tədbiri, digərləri barəsində isə həbslə bağlı olmayan digər qətimkan tədbirləri seçilib. Bundan başqa, istintaqdan qaçıb gizlənən təqsirləndirilən şəxslərdən bəzilərinin barəsində axtarışlar elan edilib. Hazırda ibtidai istintaq davam etdirilir.

# "Bolmart"da əməliyyat - "Adnan işi"

**"Bolmart" mağazalar şəbəkəsində hüquq-mühafizə orqanları tərəfindən əməliyyat keçirildiyi bildirilir. Musavat.com Telegram kanallarında yayılan məlumatlara istinadən bildirir ki, əməliyyatın səbəbi şəbəkənin həbs edilən Adnan Əhmədzadə ilə birbaşa əlaqəsinin olması ehtimalıdır. Hazırda əməliyyatın detalları açıqlanmır. Məsələ ilə bağlı rəsmi qurumlar tərəfindən təsdiq və ya təkzibedici məlumat verilməyib. Məlumatı "BarometrTV" Telegram kanalı yayıb.**






Musavat.com xəbər verir ki, "Bolmart" mağazalar şəbəkəsi son illər Azərbaycanda ən sürətlə genişlənən pərakəndə ticarət brendlərindən biri kimi tanınır. Lakin şirkətin real sahibləri, maliyyə hesabatları və fəaliyyət şəffaflığı barədə ictimaiyyətə təqdim olunan məlumatlar çox məhduddur.

Araşdırmaya görə, "Bolmart" brendinin arxasında Pro-Mart MMC adlı şirkət dayanır. Dövlət Vergi Xidmətinin məlumat bazasına əsasən, bu şirkət Az Fast Moving Business MMC və Unitrade Group MMC tərəfindən təsis edilib. Hər iki qurumun 50 faiz payla ortaqlığı qeydə alınıb. "Bolmart"ın hüquqi təmsilçisi isə əvvəlcə Ramil Əşrəf oğlu Məmmədov, daha sonra isə Bolmart Məhdud Məsuliyyətli Cəmiyyətinin direktoru olub.

Maraqlı məqam ondan ibarətdir ki, açıq mənbələrdə Pro-Mart MMC-nin təqdim etdiyi son maliyyə hesabatlarına görə, şirkət bir ildə 141 milyon manatdan artıq satış dövriyyəsi əldə edib. Amma həmin hesabatda xalis mənfəət cəmi 27 min manat göstərilib. Yəni yüz milyonlarla manatlıq ticarət dövriyyəsinə malik şirkət kağız üzərində demək olar ki, qazanc gətirməyib.

Bu, ictimaiyyət arasında ciddi suallar doğurur: necə olur ki, ölkənin ən çox filialı olan supermarket şəbəkələrindən biri ildə cəmi bir mənzilin qiyməti qədər gəlir göstərir? Vergi və maliyyə şəffaflığı məsələsi burada açıq qalır.

Məlumatlara görə, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti bir müddət əvvəl "Bolmart" şəbəkəsinin fəaliyyətində bəzi pozuntularla bağlı araşdırma aparıb və Pro-Mart MMC barəsində inzibati icraat açılıb.

Şirkətin bəzi filiallarında malların keyfiyyəti və saxlama şəraiti ilə bağlı da zamanla şikayətlər mövcud olub. Bundan əlavə, ötən illərdə "Bolmart"da baş verən qida zəhərlənməsi hadisəsi də ictimai rezonans doğurmuşdu. Həmin vaxt rəsmi açıqlamalarda mağazalarda sanitariya qaydalarının pozulduğu bildirilmişdi.

Hazırda "Bolmart" respublika üzrə 20-dən çox filialla fəaliyyət göstərir. Şirkət özünü "yerli brend" kimi təqdim etsə də, onun arxasında dayanan hüquqi və maliyyə əlaqələri barədə ətraflı məlumat ictimaiyyətə açıqlanmayıb.

Milyonlarla manatlıq dövriyyəyə malik şirkətlərin vergidən yayınma və ya real gəlirləri gizlətmə ehtimalı daim gündəmdə qalır.

❑ **Şahanə RƏHİMLİ,**
**Musavat.com**



## Bu yaşda qadınlar müayinədən keçməlidir - çağırış

**Süd vəzi xərçəngi qadın onkoloji xəstəlikləri arasında birinci yer tutur. Dünyada hər səkkiz qadından biri bu xəstəlikdən əziyyət çəkir. Hər il minlərlə qadın süd vəzi xərçəngindən dünyasını dəyişir.**

Modern.az xəbər verir ki, bunu Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktorunun müavini Anar İsrafilov "Ümumdünya süd vəzi ilə mübarizə ayı" çərçivəsində "Xərçəngdən güclüsən" mövzusunda keçirilən tədbirdə çıxış edərkən deyib.

Anar İsrafilov qeyd edib ki, qadınlar vaxtında müalicəyə cəlb olunduqda onların müalicədən sonra 5 illik yaşama şansı 90-99 faiz arasındadır: "40-69 yaş arası bütün qadınlar iki ildən bir müayinədən keçməlidirlər. Süd vəzi xərçəngi ilə mübarizədə maarifləndirmə çox vacibdir. Erkən aşkarlanma mammoqrafiya nəticəsində müəyyən olunur. Bu çox sadə bir müayinədir. TƏBİB tərəfindən iki mobil mammoqrafiya cihazı vasitəsilə respublikada müayinələr aparılır".



## Qohum evliliyini yayımlayan kanala cəza

**Audiovizual Şura tərəfindən həyata keçirilən monitorinq nəticəsində "MTV" televiziya kanalının efirində 22 oktyabr 2025-ci il tarixdə saat 20.31-21.24 arası yayımlanan "Toya gəlmişik" proqramının yayımı zamanı "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanunun 9.3-cü maddəsinin tələbinin pozulması faktı aşkar olunmuşdur.**

Bu barədə Modern.az-a Audiovizual Şuradan məlumat verilib.

Belə ki, həmin proqramın yayımı zamanı bölgələrin birində keçirilmiş, qohumların (xalaqızı və xalaoğlunun) toy məclisi nümayiş etdirilmişdir. Azərbaycan Respublikası Ailə Məcəlləsinin 12.0.2-1-ci maddəsinə əsasən qardaşların və (və ya) bacıların ümumi bioloji baba və (və ya) nənəsi olan uşaqları arasında nikahın bağlanmasına yol verilmir. Bu isə "Uşaqların zərərli informasiyadan qorunması haqqında" Qanunun 4.2.4-cü maddəsinə əsasən ailə institutunu nüfuzdan salan informasiya olmaqla uşaqlar arasında dövriyyəsi qadağan edilən informasiyaya aiddir və yayımına məhdudiyyət qoyulur.

Bir neçə gün əvvəl digər yayımçı tərəfindən bu qəbildən pozuntu halı törədilmiş və Audiovizual Şuranın iclasında həmin yayımçıya xəbərdarlıq olunmuşdu. Həmin yayımçıya xəbərdarlıq olunanda bütün yayımçılardan diqqətli olmaları və bu istiqamətdə monitorinqlərin davam edəcəyi bildirilmişdi.

Təəssüflə qeyd olunmalıdır, həmin haldan bir neçə gün sonra "MTV" kanalında yuxarıda qeyd olunan pozuntu halı baş vermişdir. Məsələnin ciddiliyini nəzərə alaraq və yayımçıların bu məsələyə bir daha diqqətini cəlb etmək məqsədilə 24 oktyabr 2025-ci il tarixində "MTV" kanalının aid olduğu "MUZ TV Azərbaycan" MMC-nin səlahiyyətli nümayəndəsi Audiovizual Şuraya dəvət edilmiş, pozuntu faktına görə inzibati xəta haqqında protokol tərtib olunaraq müvafiq məhkəməyə göndərilmişdir. İnzibati Xətalar Məcəlləsinin 388-2.0.4-cü maddəsinə əsasən qeyd olunan pozuntuya görə hüquqi şəxslər üç min manatdan dörd min manatadək məbləğdə cərimə edilir.

Audiovizual Şura bir daha bütün yayımçıları qanunvericiliyin tələblərinə ciddi əməl etməyə, digər yayımçılara tətbiq olunmuş sanksiyaların səbəbi olmuş pozuntuların baş verməməsi üçün redaksiya nəzarətini gücləndirməyə çağırır.

# COVİD-19 peyvəndi infarkta səbəb olur? - xəbərdarlıq

### Qəfil ölümlərin artması ilə bağlı yeni iddialar səslənir - iki rəy




**Məlum olur ki, COVİD-19 peyvəndləri əvvəllər düşünüləndən daha az insanın həyatını xilas edib. ABŞ və İtaliyadan olan beynəlxalq araşdırmaçılar qrupu qlobal COVİD-19 peyvəndinin effektivliyi ilə bağlı əvvəlki qiymətləndirmələri şübhə altına alan böyük bir təhlilin nəticələrini dərc edib. Onlar peyvəndlərin pandemiya dövründə təxminən 2,5 milyon insanın həyatını xilas etdiyini təxmin edirlər ki, bu da Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) əvvəllər bildirdiyi rəqəmlərdən bir neçə dəfə aşağıdır (Lent.az).**

Stenford Universitetinin araşdırmaçıları yalnız ölüm hallarını deyil, həm də infeksiya nisbətlərini, yaş amillərini və peyvənddən sonra immunitetin azalmasını nəzərə alan inkişaf etmiş riyazi modeldən istifadə ediblər. Müqayisə üçün: 2022-ci ildə ÜST təxminən 14,4 milyon insanın həyatının xilas edildiyini iddia edib, bəzi təxminlərə görə isə bu rəqəm 20 milyona çatıb. Lakin yeni bir araşdırma göstərir ki, qarşısı alınan ölümlərin təxminən 90 faizi 60 yaşdan yuxarı insanlar arasında olub, gənc yaş qrupları üçün isə təsiri minimal olub. Layihənin rəhbəri professor Con İoannidis qeyd edib ki, nəticələr gələcək kütləvi immunizasiya proqramları üçün bir dərs olmalıdır. O, peyvəndləməyə universal yanaşmanın, xüsusən də aşağı riskli qrupları hədəf aldıqda həmişə özünü doğrultmadığını vurğulayıb.

Peyvəndləmə yaşlılara, xüsusən də xroniki xəstəlikləri olanlara ən böyük təsir göstərib. 30 yaşdan aşağı arasında ümumi həyat qurtaran statistikaya töhfə bir faizin onda birindən az olub. Araşdırmanın müəllifləri vurğulayırlar ki, onların məqsədi peyvəndin nüfuzdan salınması deyil, onun effektivliyini dəqiq qiymətləndirmək və gələcək pandemiyalar zamanı əhalini qorumaq üçün daha hədəflənmiş strategiyalar hazırlamaqdır.

Bəs peyvəndlər hansı halda daha effektli təsir göstərir? Onların hazırlanmasında əsas şərtlər nədir?

**Almaniyada yaşayan yazıçı-bloger Yusif Hansen öz sosial media hesabında yazır ki, Almaniyada minlərlə insan COVİD peyvəndindən sonra sağlamlığını itirib. Cəmi 600-ə yaxın insan bunu sübut edə bilib, digər minlərlə iş isə hələ məhkəmələrdədir:** "Bu qurbanlardan, sağlamlığını bərpaedilməz dərəcədə itirənlərdən biri də mənəm. Autizm bəlası gətirdi mənə. Mən də digər insanlar kimi düşünürdüm ki, autizm uşaqlıqdan bilinən bir xəstəlikdir, sonra gördüm ki, elə deyil. Autizmli uşaqlar məktəbi belə oxuya bilmir, mən isə həyatımda bu sahədə kifayət qədər uğur qazanmış biriyəm. Sonra öyrəndim ki, 20-30 yaşlarında da bu xəstəliyə tutulanlar olur".

Azərbaycanda da pandemiyadan sonra bir sıra xəstəliklər baş qaldırdı. İnsanlar əsasən yaddaş pozğunluğundan şikayət edirlər. Xərçəng xəstəliyi çoxaldı, ən əsas da qəfil ölümlərin - infarktdan, insultdan ölümlərin sayı artdı. Bu xüsusda COVİD-19 vaksinasiyasından sonra ürək-damar problemlərinin artması ilə bağlı iddialar səsləndirildi.

**Həkim-cərrah, professor Adil Qeybulla**ya görə, ürək və damar xəstəliklərinin gəncləşməsi COVİD-19-dan daha çox hərəkətsizlik, qidalanma vərdişlərinin pozulması və sağlamlığa zərərli vərdişlərlə bağlıdır. O əlavə edib ki, COVİD peyvəndi ilə əlaqəli iradlar və iddialar tibbi araşdırmalarla təsdiqlənməyib: "Aparılan ciddi tədqiqatlar göstərir ki, iddia edilən təsirlər reallıqda özünü göstərmir. Ürək-damar problemlərinə yol açan əsas amillər arasında siqaret, qəlyan, elektron siqaret, spirtli içkilər və energetik içkilər yer alır. Bu vərdişlər xüsusilə qızlar arasında sürətlə yayılır. Energetik içkilərdəki kofein və taurin maddələri isə ürək əzələsini yükləyir. Bundan başqa, çox yağlı qidalar və gündəlik kalorinin sərf olunmaması, nəticədə isə artıq çəki ürək-damar sisteminin fəaliyyətinə mənfi təsir göstərir. Gənclərin üzləşdiyi güclü xroniki stress də bu problemin yaranmasına səbəb olur. Bütün bu faktorlar birləşərək gənclərin sağlamlığına ciddi zərər verir və nəticələr açıq şəkildə görünür".

**Siyasi şərhçi Asif Şəfəqqətov mövzu ilə bağlı narahatlığını ifadə edib:** "99 milyon nəfəri əhatə edən elmi araşdırma nəticəsində məlum olub ki, COVİD-19-a qarşı peyvəndləmədən sonra bir çox xəstəliklərin baş vermə riski dəfələrlə artır. Ən böyük elmi araşdırma COVİD-19-a qarşı mRNT peyvəndi (Pfizer/BioNTech BNT162b2, Moderna mRNA-1273, Oxford/Astra Zeneca/Serum Institute of India ChAdOx1) vurulduqdan sonra yaranan nevroloji, hemotoloji və ürək-damar üzrə yan təsirlər müqayisə edilib: miokarditin yaranma riski 610% artır, kəskin səpələnmiş ensefalomielitin yaranma riski 378% artır, sinus-trombozun yaranma riski 323% artır, Giyen-Barre sindromunun riski 249% artır. Xatırladıram ki, "Astra-Zeneca" peyvəndinin tətbiqi 2024-cü ilin aprel ayında qadağan edildi. Milyardlarla insan kütləvi şəkildə aldadılaraq peyvəndləndi, aldanmayanları isə məcburi şəkildə peyvəndlədilər. Bu, qlobal cinayətdir - tarix bu boyda cinayət görməmişdi. Lakin buna görə heç kim məsuliyyətə cəlb olunmayıb və olunmayacaq da. Bundan sonra KİV-ə, "alimlərə", "həkimlərə" kor-koranə niyə inanmalıyıq?"

Çexiyadan olan yeni bir araşdırma da narahatedici meyli üzə çıxarıb. COVİD-19-a qarşı peyvənd olunmuş qadınlarda 2022-ci ildə uğurlu hamiləlik halları peyvənd olunmamış qadınlarla müqayisədə 33% az olub. Təhlil 18-39 yaş arası 1,3 milyon qadını əhatə edib. Peyvənd olunanların əksəriyyəti Pfizer və ya Moderna preparatlarını qəbul edib - məhz bu mRNT əsaslı peyvəndlər şübhə doğurur. mRNT peyvəndi qəbul edən qadınlarda uğurlu hamiləliklərin sayı ayda hər 1000 qadına 4 hal olub, peyvənd olunmamışlarda isə bu göstərici hər 1000 qadına 6 hal təşkil edib. Bu, Pfizer və Moderna-nın tək yan təsiri deyil - daha əvvəl bu preparatların ciddi sağlamlıq problemlərinə səbəb ola biləcəyi barədə də məlumatlar yayılmışdı. Alimlər kütləvi ölüm hallarına dair xəbərdarlıq etmişdilər. Bu arada Avropa Komissiyasının rəhbəri Ursula fon der Lyayen peyvənd alışı müqavilələrindən qazanc götürməkdə ittiham olunur, COVİD peyvəndləri səbəbindən həlak olanların ailələri də onun əleyhinə məhkəmə iddiası qaldırıblar.

❑ **Afaq MİRAYİQ,**
**"Yeni Müsavat"**

# Elmin yüksək pilləsində çöküş - doktoranturaya marağı necə artırmalı?

## Ekspert: "Təqaüd məbləği 220-260 manatdır, bu, elmi fəaliyyət üçün stimul yarada bilmir"

**Ali təhsilin ən yüksək pilləsi olan doktoranturaya maraq azalıb. Dəfələrlə elm adamları, təhsil mütəxəssisləri və rəsmilər bu problemi dilə gətiriblər. Bakı Dövlət Universitetində (BDU) keçirilən elm və ali təhsil üzrə ictimai dinləmədə elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli deyib ki, doktoranturaya qəbul faizi ciddi şəkildə aşağı düşüb. Nazir müşaviri bildirib ki, gənclərin doktorantura təhsilinə marağının artırılması ilə bağlı ciddi islahatlara ehtiyac var.**

Ekspertlər hesab edir ki, bu halın yaranmasının günahı elm və təhsili idarə edənlərdədir. Onların sözlərinə görə, son dövrlər cəmiyyət elm və təhsilə rəhbərlik edən qurumların, şəxslərin qarşıdurmaları, elmi inkişaf etdirmək əvəzinə başqa işlərlə məşğul olduğu barədə kifayət qədər informasiya alır. Bu sahəyə rəhbərlik edən şəxslərin üzərinə daha çox məsuliyyət düşdüyünü deyən ekspertlər hesab edirlər ki, bu prosesdəki əngəllər, neqativlər aradan qaldırılmalıdır.



Elmi cameədə doktoranturaya qəbul prosesinin mürəkkəbliyi daim tənqid olunur və hətta belə iddialar da edilir ki, bəzi hallarda kimlərinsə qohumları, hansısa vəzifəli şəxslərin övladları üçün doktoranturada yerlər ayrılır, bu da digərləri üçün əngəl yaradır. Neqativ hallardan biri ondan ibarətdir ki, Azərbaycanda vəzifəli şəxslərin bir çoxu elmi dərəcə, elmi ad almaqla özlərini reklam etmək istəyir. Özləri heç bir zəhmət çəkmədən, elmi işlərini başqalarına yazdırmaqla elmi dərəcələr alırlar. Bəzi məmurların neqativ yollarla elmi dərəcələr alması gəncləri ruhdan salır. Yəni bu neqativ hallar gənclərin elmə gəlməsinə mənfi təsir göstərir.

**Təhsil eksperti Kamran Əsədov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Azərbaycanda doktoranturaya marağın azalması həm elmi sistemin struktur problemlərini, həm də elmi mühitdə formalaşan inamsızlıq və qeyri-obyektivlik meyllərini üzə çıxarır. Onun sözlərinə görə, doktorantura təhsili ölkənin intellektual və elmi potensialının əsas sütunudur: "Bu sahədəki geriləmə təkcə təhsil siyasətinin deyil, həm də elmi idarəetmənin strateji zəifliyinin nəticəsidir. 2024-cü ilə dair rəsmi statistikaya əsasən, ölkədə doktorantura səviyyəsində təhsil alanların sayı 2015-ci illə müqayisədə 22 faiz azalıb. Bəzi universitetlərdə bu pilləyə qəbul göstəricisi 40 faizdən aşağı düşüb. Bu, elmi tədqiqatın cazibədarlığının azalması və elmi mühitdə ədalətsiz yanaşmaların artması ilə sıx bağlıdır. Nazir müşaviri Nicat Məmmədli də BDU-da keçirilən ictimai dinləmədə qeyd edib ki, doktoranturaya qəbul faizi kritik həddə enib və sistemin yenidən qurulmasına ciddi ehtiyac var. "Təhsil haqqında" Qanunun 14-cü maddəsində göstərilir ki, elmi və elmi-pedaqoji fəaliyyətin inkişafı dövlətin prioritet istiqamətidir. Bu müddəa faktiki olaraq Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) yaradılma və fəaliyyət fəlsəfəsinin əsasını təşkil edir. AMEA uzun illərdir ki, elmin institusional strukturunu, elmi kadr hazırlığını və tədqiqat mədəniyyətini qoruyan əsas mərkəz kimi çıxış edir. Məhz AMEA-nın bazasında formalaşan elmi məktəblər-tarix, fizika, kimya, filologiya, biologiya sahələrindəki istiqamətlər - Azərbaycanın elmi potensialının milli brendi səviyyəsinə yüksəlib. AMEA-nın üstünlüyü ondadır ki, burada elmi rəhbərlik ənənəsi, tədqiqat intizamı və akademik nəzarət sistemi hələ də saxlanılır. Akademiya elmi dərəcələrin mahiyyətini qoruyur, elmin ideoloji və metodoloji əsaslarını saxtakarlıqdan uzaq saxlayan yeganə platformadır. Universitetlərdə isə bu proses, təəssüf ki, çox zaman formal xarakter daşıyır. Bir çox ali təhsil müəssisələrində doktorantura yerləri inzibati resurslar vasitəsilə bölüşdürülür, elmi istedad və potensial deyil, şəxsi münasibətlər və vəzifə amili önə çıxır. Elmi rəhbərlik institutu zəifdir, tədqiqatın keyfiyyətinə nəzarət mexanizmləri demək olar ki, yoxdur. Universitetlərdə elmi işlərə ayrılan vaxt və resurs tədris yükünün çoxluğu ilə balanslaşdırılmadığından, doktorantlar tədqiqatdan çox formal hesabat hazırlamağa məcbur qalır. Nəticədə, elmi işlərdə plagiat halları artır, bəzi məmurlar elmi dərəcəni yalnız sosial status vasitəsinə çevirirlər. Bu, elmin mahiyyətini deformasiyaya uğradır, gənclərdə elmi sistemə inamı sarsıdır. AMEA ilə universitetlər arasında fərq, həm elmi nəzarət sistemində, həm də dəyərlər səviyyəsində özünü göstərir. AMEA-da müdafiə şuralarının işi çox vaxt sərt elmi prinsiplərlə tənzimlənir, universitetlərdə isə formal hesabatçılıq və akademik riyakarlıq geniş yayılıb. Məsələn, AMEA-nın institutlarında aparılan tədqiqatların nəticələri beynəlxalq bazalarda indeksləşir, xarici nəşrlərdə dərc olunur, universitetlərin bir çoxunda isə hələ də daxili "məqalə topluları" elmi fəaliyyətin göstəricisi kimi təqdim edilir. Bu, həm elmi keyfiyyətə, həm də beynəlxalq imicə zərbə vurur".

Dünya təcrübəsindən danışan ekspert qeyd edib ki, doktorantura sisteminin keyfiyyəti məhz elmi institutlarla universitetlərin sinerjisi üzərində qurulur: "Almaniyada Max Planck, Fraunhofer və Helmholtz kimi elmi institutlar universitetlərə paralel fəaliyyət göstərir, Estoniyada doktorantlar həm universitetlərdə, həm də tədqiqat mərkəzlərində çalışır. Azərbaycanda da bu modelə uyğun olaraq AMEA-nın potensialı əsas baza kimi saxlanılmalı, universitetlər onun elmi mühitinə inteqrasiya edilməlidir. Əks halda, universitetlərdəki formal elmi dərəcə yarışı elmin real dəyərini məhv edəcək. Doktorantların sosial vəziyyəti də ciddi islahat tələb edir. Hazırda təqaüd məbləği 220-260 manat civarındadır ki, bu, elmi fəaliyyət üçün stimul yarada bilmir. Estoniyada doktorantlar orta aylıq əməkhaqqının 75 faizini, Türkiyədə 100/2000 proqramı çərçivəsində 7500 lirəyə qədər, Cənubi Koreyada isə dövlət qrantları vasitəsilə 1000 dollardan çox təqaüd alır. Azərbaycanda bu məbləğin ən azı 600-700 manat səviyyəsinə qaldırılması və elmi fəaliyyətlə məşğul olan doktorantların işçi statusu ilə təmin olunması vacibdir. Elm və Təhsil Nazirliyi son illərdə bu istiqamətdə bir sıra müsbət addımlar atıb: doktorantura proqramlarının keyfiyyət monitorinqi, elektron qeydiyyat sisteminin tətbiqi, elmi rəhbərlərin məsuliyyətinin artırılması kimi tədbirlər bu prosesin başlanğıcıdır".

❑ **Nigar HƏSƏNLİ,**
**"Yeni Müsavat"**



## Gələn il kirayə evlər bahalaşacaq

**"Bir çox hallarda evini kirayə verən vətəndaş ödəməli olduğu vergini kirayəçi üzərinə yükləməyə çalışır. Bu, qanunvericiliyə görə, düzgün yanaşma deyil. Əgər bir şəxs mənzilini rəsmi şəkildə, müqavilə əsasında kirayə verirsə, o, əldə etdiyi gəlirdən vergi ödəməyə borcludur. Evdə yaşayan kirayəçi isə bu vergini ödəmək öhdəliyinə malik deyil".**

Bu sözləri Tribunainfo.az-a əmlak eksperti Elnur Fərzəliyev növbəti ildən evini kirayə verənlərdən 10 faizlik vergi tələbi barədə danışarkən deyib. Ekspert qeyd edib ki, əvvəl evini kirayə verənlər gəlirinin 14 faizini vergi formasında dövlətə ödəməli idi, lakin heç də hər kəs müqavilə əsasında evini kirayə vermədiyi üçün bu vergidən yayınırdı: "Praktikada mənzil sahibləri, vergiyə görə əlavə xərclə qarşılaşmamaq üçün kirayə qiymətini artırırlar. Yəni faktiki olaraq, ödəyəcəkləri vergi yükünü dolayısı ilə kirayəçinin cibindən çıxarmağa çalışırlar. Bu isə təbii olaraq bazarda ümumi qiymət artımına səbəb olacaq.

Bu səbəbdən 2026-cı ildən etibarən kirayə mənzil bazarında növbəti bahalaşma dalğası gözlənilir. Vergidən yayınan, mənzilini müqaviləsiz kirayə verən şəxslər də bu vəziyyətdən öz xeyirlərinə istifadə edəcəklər. Onlar vergi ödəməsələr də, "bazarda qiymətlər qalxıb" arqumenti ilə kirayə haqqını süni şəkildə artıracaqlar. Nəticədə kirayə bazarında iki paralel seqment formalaşacaq:

Rəsmi müqavilə ilə ev verən və vergi ödəyənlər - mənzillərini daha baha qiymətə təqdim edəcəklər;

Müqaviləsiz, qeyri-rəsmi kirayə verənlər - qiymətləri nisbətən az qaldıraraq daha çox kirayəçi cəlb etməyə çalışacaqlar.

Beləliklə, yeni vergi mexanizmi bazarda şəffaflığı artırsa da, qısamüddətli dövrdə qiymət artımına səbəb olacaq".



## Bağça müəllimlərinin keçid balı açıqlandı

**Məktəbəqədər təhsil müəssisələrində tərbiyəçi-müəllimlərin işə qəbulu üzrə müsabiqənin vakansiya seçimi üçün keçid balları müəyyən edilib. Bu barədə APA-ya Təhsil İnstitutunun İnsan Resursları Mərkəzindən məlumat verilib.**

Keçid balı Qazax-Tovuz Regional Təhsil İdarəsi üzrə 35 bal, Bakı Şəhəri Təhsil İdarəsi və digər regional təhsil idarələri üzrə isə 40 bal müəyyən edilib.

YENİ MÜSAVAT

Son səhifə

N 195 (8805) 28 oktyabr 2025

Oktyabr



## Gözümüzə baxıb xəstəliyimizi tapacaqlar - tibbdə yeni era

**Alimlər gözün tor qişasındakı kiçik damarların vəziyyəti ilə bioloji yaşlanma sürətini müəyyən etməyin mümkün olduğunu bildiriblər. Bu nəticəyə Kanada McMaster Universiteti və Xalq Sağlamlığı Tədqiqat İnstitutu (PHRI) əməkdaşları gəlib. Tədqiqatın nəticələri Science Advances (SciAdv) jurnalında dərc olunub.**

Alimlər 74 mindən çox iştirakçının məlumatlarını təhlil ediblər. Bu məlumatlar arasında Kanadanın uzunmüddətli yaşlanma araşdırması, diabet genetikasına dair GoDARTS layihəsi, Böyük Britaniya biobankı və beynəlxalq PURE araşdırması var idi. Tədqiqatda gözün tor qişasının skan nəticələri istifadə olunub.

Nəticələr göstərib ki, sadə və az budaqlanan damar strukturu olan insanlarda ürək-damar xəstəliklərinə daha çox rast gəlinir. Bu xüsusiyyət həmçinin yüksək iltihab səviyyəsi və daha qısa gözlənilən ömürlə bağlıdır. Hazırda infarkt, insult və ya demensiya riskini qiymətləndirmək üçün bir sıra müayinələr aparmaq lazımdır. Lakin tədqiqatçılar ümid edirlər ki, gələcəkdə sadəcə gözün skanı ilə damarların vəziyyətini və bioloji yaşını tez və ucuz şəkildə müəyyən etmək mümkün olacaq. Metod hələ əlavə yoxlama və klinik sınaqlar tələb edir.

Tədqiqatın vacib hissəsi iştirakçıların qan biomarkerləri və genetik xüsusiyyətlərinin təhlili olub. Bu, alimlərə damar strukturu və sağlamlıq arasında əlaqəni müəyyən etməyə və yaşlanma prosesində iştirak edən zülalları aşkar etməyə imkan verib. Xüsusilə MMP12 və IgG-Fc-reseptor IIb zülalları diqqəti çəkib. Bu zülallar iltihab və damar zədələnməsinə təsir göstərir. Alimlərin fikrincə, bu molekullar yeni dərmanların hədəfi ola bilər və damarların yaşlanmasını ləngidərək ürək xəstəlikləri riskini azalda bilər.

# Kraliça II Elizabetin şəxsi avtomobili hərraca çıxarılıb



**Böyük Britaniyada 2007-ci ilin "Range Rover"i hərraca çıxarılıb. Premium SUV Kraliça II Elizabetə məxsus olub. Əlahəzrət onu dəfələrlə idarə edib. Oxu.Az xəbər verir ki, bu barədə "Iconic" hərrac saytı məlumat yayıb. Məlumata görə, avtomobilin 50-60 min funt sterlinqə satılacağı gözlənilir.**

Bu "Range Rover" Britaniya brendinin modellərinin lüks versiyalarını istehsal edən Xüsusi Nəqliyyat Vasitələri bölməsi tərəfindən modifikasiya edilib. Avtomobilə minib-düşməyi asanlaşdırmaq məqsədilə xüsusi olaraq kraliça üçün tutacaqlar quraşdırılıb. Kapotun altında 272 at gücünə malik 3,6 litrlik turbodizel V8 mühərriki var. Avtomobil 6 pilləli avtomatik transmissiya ilə təchiz edilib. Onun yürüş məsafəsi 202.000 km-dir.

# Hər 10 evdən 7-də var - xərçəng yaradır



**Evdə istifadə olunan bəzi ətirlər sağlamlıq üçün təhlükəlidir. Fransanın "60 Millions de Consommateurs" təşkilatının araşdırmasına görə, ətir çubuqları formaldehid, benzol, etilbenzol, furfural, stiren, toluol və asetaldehid kimi kanserogen maddələr buraxır. Bu maddələrin konsentrasiyası çox vaxt otaq havasının təhlükəsiz səviyyəsini dəfələrlə keçir. Ətir çubuqları həmçinin yüksək konsentrasiyada mikrozərrəciklər buraxır ki, bunlar ağciyərlərə daxil olub kapilyarlardan qan dövranına keçə bilər.**

Ən təhlükəsiz ev ətir vasitəsi aromadiffuzorlar hesab olunur. Bu məhsullarda istifadə olunan məhlullar təhlükəsiz səviyyədə qlikol efirləri ilə hazırlanır. Bəzən onlar efir yağları ilə zəngin ola bilər, amma kanserogen maddələr ya yoxdur, ya da çox aşağı təhlükəsiz konsentrasiyada olur.



## Smartfon asılılığına qarşı qeyri-adi aksesuar hazırlandı

**"Matter Neuroscience" şirkəti 3 kq ağırlığında telefon örtüyü buraxıb. Oxu.Az androidauthority.com-a istinadən xəbər verir ki, şirkət bu qeyri-adi aksesuar vasitəsilə insanları smartfon asılılığından və sosial şəbəkələrdə xeyli vaxt keçirməkdən xilas etməyi planlaşdırır. Örtük paslanmayan poladdan hazırlanıb. İstehsalçılar iddia edirlər ki, ağır smartfonu daim tutmaqdan yaranan fiziki yorğunluq "bədən və ağlın əks əlaqəsi"ni formalaşdırır. Eyni zamanda örtük asanlıqla çıxarıla bilməz, çünki dörd vintlə bərkidilib.**

Aksesuarın forması qəsdən əlverişsiz hazırlanıb, buna görə də smartfon cibə yerləşmir, lakin telefonun bütün funksionallığını tam saxlayır. Örtük "iPhone 13"dən başlayaraq bir neçə "iPhone" modelinə uyğun gəlir. Qiyməti 209 dollardır.

## Bunları bilirsinizmi?

* Ən uzun hörüklərin sahibi XIX əsrdə İngiltərədə yaşamış Ovens adlı bir qadın idi. Onun hörüklərinin uzunluğu 2m. 50 sm. olmuşdur.

* İnsanlar bütün ömrü boyunca 20 kiloqram toz udurlar.

* Kanada da yerin cazibə qüvvəsi dünyanın digər əraziləri ilə müqayisə də daha azdır. Bu səbəbdən kanadalılar özlərini tərəzidə çəkərkən öz normal çəkilərindən az çəkidə çıxırlar.

* Hindistanda bığ saxlayan polislər daha ciddi göründükləri üçün digər polislərdən 5% çox maaş alırlar.

* İnsan bədənindəki damarlarln uzunluğu təxminən 96 min kilometrdir.

* 1 kq kökəlmək üçün bədənimiz 20 km yeni damar əmələ gətirir.

* Dünya da ən uzun hakimiyyətdə qalmış sülalə Osmanlı sülaləsidir. (623 il)

* Qarışqa yuvalarının girişi hər zaman şimala tərəf olur.

* Vaxtının çoxunu musiqi dinləyərək keçirən insanlar daha çox depressiv insanlar olur.

* Shakespeare 23 apreldə doğulmuş və 23 apreldə vəfat etmişdir.

* Norveçin şimalında hər yay 14 həfə gecə-gündüz günəşli keçir.

* Timsahlar dillərini çölə çıxara bilmirlər.

* Fransızlar ən nəzakətli xalq sayılır. Bir yazıçı bunu sübut etmək üçün yazır: "Bu yaxınlarda Parisin köhnə bir qəbiristanlığında üzərində yazılar olan bir başdaşı tapdım. Orada yazılmışdır: "Mənim istirahət yerimə yaxınlaşanda ayağa qalxıb sizi salamlamadığım üçün üzr istəyirəm".

* Ağcaqanadların 47 ədəd dişi olur.

* Almaniyadakı zooparkların birində "Dünyanın ən təhlükəli heyvanı" zalı var. İçəri daxil olduqda qarşınıza nəhəng bir güzgü çıxır.

## Məşhur qravür hərracda satılacaq



**Katsusiki Hokusayın məşhur qravürü "Kanaqavada böyük dalğa" Honkonqda keçirilən hərracda satılacaq. Oxu.Az bu barədə "Sotheby's" hərrac evinin saytına istinadən xəbər verir. Hərrac noyabrın 22-də keçiriləcək. Qravürün qiyməti 250-300 min funt sterlinq (təxminən 565-678 min manat) arasında təxmin edilir. Yaponiyanın "Okada" muzeyinin təsisçisi və milyarder Kadzuo Okada "Kanaqavada böyük dalğa" və digər əsərləri kazino maqnatı Stiv Vinn ilə məhkəmə mübahisəsindən sonra 50 milyon dollar borc səbəbi ilə satır. Tərəflər bir-birini korrupsiyada ittiham edirdilər. Rəsmin 1823-1831-ci illər arasında ərsəyə gətirildiyi güman edilir.**

## Britaniyada həbsxanadan səhvən azad edilən miqrant beş dəfə geri qayıdıb



**Efiopiyadan Böyük Britaniyaya gələn Haduşa Gerberslasi Kebatu yerli həbsxanaya düşsə də, səhvən azad edilib. O, beş dəfə geri qayıtmağa çalışıb, lakin bütün cəhdləri uğursuz olub. Oxu.Az xəbər verir ki, bu barədə "Sky News" məlumat yayıb. Sentyabr ayında Britaniya məhkəməsi Kebatunu 14 yaşlı qıza və bir qadına cinsi təcavüz etməkdə günahkar bilib. Lakin cinayətkar səhvən azadlığa buraxılıb. O, çaşqın vəziyyətdə müəssisənin yaxınlığında dayanıb, həbsxana işçiləri onu qatar stansiyasına yola salıblar. Miqrant beş dəfə geri qayıtsa da, o, həbsxana işçiləri tərəfindən qovulub. Qeyd edək ki, Kebatunun cinayətləri Britaniyanın Eppinq şəhərində qanunsuz immiqrasiyaya qarşı kütləvi etirazlara səbəb olub.**

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABÌROĞLU

e-mail adres: yenimusavat@mail.ru

"Yenì Müsavat"ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, "Son dakìka" MMC-nin mətbəəsìndə çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksìyanın mövqeyì uyğun gəlməyə bilər.

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emìl SALAMOĞLU

Lìsenzìya N: B 114

SAYI: 1.500